AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

10 FEVRAL 2019-cu il BAZAR № 33 (6360) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLICA-NEWS.AZ

## İran İslam Respublikasının Prezidenti Zati-aliləri cənab Həsən Ruhaniyə

Hörmətli cənab Prezident,

Ölkənizin milli bayramı - İslam İnqilabının Qələbəsi Günü münasibətilə Sizə və xalqınıza şəxsən öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasındakı münasibətlər tarixən dostluq və mehriban qonşuluq şəraitində yaşamış xalqlarımızın iradəsindən qaynaqlanır. Əminəm ki, ikitərəfli əlaqələrimiz, müxtəlif sahələri əhatə edən qarşılıqlı faydalı əməkdaşlığımız bundan sonra da müvəffəqiyyətlə inkişaf edəcək və genişlənəcəkdir.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost və qardaş İran xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 7 fevral 2019-cu il.**

## Y.M.Mahmudovun 1-ci dərəcəli "Əmək" ordeni ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan tarixinin tədqiqi sahəsində uzunmüddətli səmərəli fəaliyyətinə görə Yaqub Mikayıl oğlu Mahmudov 1-ci dərəcəli "Əmək" ordeni ilə təltif edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 9 fevral 2019-cu il.**

## Azərbaycan Respublikası Vergilər Nazirliyinin əməkdaşlarına ali xüsusi rütbələrin verilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Naxçıvan Muxtar Respublikasının vergilər naziri Azər İslam oğlu Nağıyevə 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri xüsusi rütbəsi verilsin.

**2.** Azərbaycan Respublikasının Vergilər Nazirliyi yanında Vergi cinayətlərinin ibtidai araşdırılması departamentinin baş direktoru Xəqani Qara oğlu İsgəndərova 3-cü dərəcəli dövlət ədliyyə müşaviri xüsusi rütbəsi verilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 9 fevral 2019-cu il.**

## Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 18 dekabr tarixli 54 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Müdafiə Nazirliyinin strukturu"nda və "Azərbaycan Respublikasının Müdafiə Nazirliyində ali hərbi rütbəli vəzifələrin siyahısı"nda dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 18 dekabr tarixli 54 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, N 12, maddə 1521; 2015, N 11, maddə 1309; 2016, N 1, maddə 48; 2017, N 12 (I kitab), maddə 2344; 2018, N 6, maddə 1202; Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 25 dekabr tarixli 431 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Müdafiə Nazirliyinin strukturu"nda və "Azərbaycan Respublikası Müdafiə Nazirliyində ali hərbi rütbəli vəzifələrin siyahısı"nda dəyişiklik təsdiq edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 7 fevral 2019-cu il.**

# Prezident İlham Əliyev Rusiyanın iqtisadi inkişaf nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 9-da Rusiya Federasiyasının iqtisadi inkişaf naziri, Azərbaycan-Rusiya Hökumətlərarası Komissiyasının həmsədri Maksim Oreşkinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Maksim Oreşkinlə bu yaxınlarda Davosda keçirilən görüşü xatırladı və onun ölkəmizə bu səfərinin əlaqələrimizin daha da genişləndirilməsi işinə töhfə verəcəyinə əminliyini ifadə etdi. Prezident İlham Əliyev səfər zamanı ölkələrimiz arasında ticarət dövriyyəsi, nəqliyyat, birgə müəssisələrin yaradılması və digər sahələrdə iqtisadi əməkdaşlığın daha da genişləndirilməsi ilə bağlı səmərəli müzakirələrin aparılacağına əminliyini bildirdi. Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında ikitərəfli münasibətlərin bütün sahələrdə uğurla inkişaf etdiyini vurğulayan dövlətimizin başçısı iki ölkənin prezidentləri arasında əldə edilmiş razılaşmaların və eləcə də ötən ilin sentyabrında Rusiyaya rəsmi səfəri zamanı imzalanmış sənədlərin icrası ilə bağlı artıq konkret işlərin həyata keçirildiyini bildirdi, bunun əməkdaşlığımızın yüksək səviyyəsinin göstəricisi olduğunu dedi. Prezident İlham Əliyev bu il Samur çayı üzərində körpünün istifadəyə veriləcəyini qeyd edərək bunun hər iki ölkə vətəndaşlarının gediş-gəlişi üçün yaxşı imkanlar yaradacağına və əməkdaşlığımızın daha da genişləndirilməsi işinə xidmət edəcəyini bildirdi. Dövlətimizin başçısı bu gün Hacıqabulda "QAZ" avtomobillərinin istehsalı zavodunun təməlinin qoyulacağının əhəmiyyətini qeyd etdi. Prezident İlham Əliyev Maksim Oreşkinin rəhbərlik etdiyi nümayəndə heyətinin ölkəmizə səfəri zamanı iqtisadi sahədə əməkdaşlıqla bağlı yol xəritəsi çərçivəsində əlaqələrin perspektivlərinə dair səmərəli müzakirələrin aparılacağına əmin olduğunu vurğuladı.

Azərbaycana səfərindən məmnunluğunu bildirən Rusiya Federasiyasının iqtisadi inkişaf naziri, Azərbaycan-Rusiya Hökumətlərarası Komissiyasının həmsədri Maksim Oreşkin ölkəmizə hər gəlişi zamanı Azərbaycanın ayrı-ayrı bölgə və şəhərləri, çoxlu sayda gözəl rəngarəng yerləri ilə tanış olduqlarını bildirdi. Maksim Oreşkin Azərbaycan Prezidentinin ötən il Rusiyaya rəsmi səfəri zamanı təsdiq olunmuş yol xəritəsi üzrə Azərbaycanla fəal əməkdaşlığın həyata keçirildiyini qeyd edərək ticarət dövriyyəsi, investisiya və birgə layihələrin reallaşdırılması ilə bağlı müsbət dinamikanın mövcud olduğunu vurğuladı. Rusiyalı nazir Azərbaycan-Rusiya sərhədinə səfər etdiklərini və Samur çayı üzərində körpünün inşası ilə bağlı işlərin gedişi ilə tanış olduqlarını qeyd etdi. O, Azərbaycanla Rusiya arasında nəqliyyat sahəsində əməkdaşlığın uğurla inkişaf etdiyini vurğuladı. Qonaq bildirdi ki, hazırda sərhəd boyu 3 buraxılış məntəqəsinin təkmilləşdirilməsi ilə bağlı gedən işlər Azərbaycanla Rusiyanın qarşılıqlı nəqliyyat bağlantısının inkişafına kompleks yanaşmanın tətbiq olunduğunu göstərir.

Söhbət zamanı infrastruktur, investisiya, nəqliyyat və digər sahələrdə əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı, birgə hökumətlərarası komissiyanın səmərəli fəaliyyət göstərdiyi qeyd olundu.

**AZƏRTAC**

## Bakı şəhərinin Sabunçu rayonu ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Bakı şəhərinin Sabunçu rayonu ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi məqsədilə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 1,6 milyon (bir milyon altı yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 9 fevral 2019-cu il.**

## "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, N 5, maddə 765, N 9, maddə 1650, N 10, maddə 1789, N 12 (I kitab), maddələr 2314, 2321; 2018, N 1, maddə 54, N 2, maddələr 200, 219, N 3, maddələr 416, 430, 448, N 5, maddələr 916, 919, N 6, maddə 1243, N 9, maddələr 1828, 1840, N 11, maddələr 2274, 2289; Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 10 dekabr tarixli 383 nömrəli, 21 dekabr tarixli 430 nömrəli fərmanları) ilə təsdiq edilmiş "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın 19-cu hissəsinə "229," rəqəmlərindən sonra "253-1.1.1 (yaşıllıqların uçota alınmamasına münasibətdə), 253-1.1.2 (yaşıllıqların uçotu məlumatlarının təhrif edilməsinə münasibətdə), 253-1.1.3," rəqəmləri və sözləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 7 fevral 2019-cu il.**

## M.Ç.Cabbarova 2-ci dərəcəli dövlət vergi xidməti müşaviri xüsusi rütbəsinin verilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının vergilər naziri Mikayıl Çingiz oğlu Cabbarova 2-ci dərəcəli dövlət vergi xidməti müşaviri xüsusi rütbəsi verilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 9 fevral 2019-cu il.**

## Azərbaycan Respublikası Vergilər Nazirliyinin əməkdaşlarının təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında vergi sisteminin inkişafında xüsusi xidmətlərinə görə Azərbaycan Respublikası Vergilər Nazirliyinin aşağıdakı əməkdaşları təltif edilsinlər:

**2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə**

Məmmədov Azər Oqtay oğlu

**1-ci dərəcəli "Vergi orqanlarında xidmətdə fərqlənməyə görə" medalı ilə**

Cəfərov Azər Sihət oğlu
Əliyev Rəşad Qəhrəman oğlu
İmanov Asəf Polad oğlu
İskəndərov Kamal Bahadır oğlu
Məmmədov Şöyüb Kamil oğlu
Sultanova Sədaqət Ramiz qızı

**2-ci dərəcəli "Vergi orqanlarında xidmətdə fərqlənməyə görə" medalı ilə**

Məmmədov Rövşən Rəhim oğlu
Osmanov Akif Osman oğlu

**3-cü dərəcəli "Vergi orqanlarında xidmətdə fərqlənməyə görə" medalı ilə**

Əliyarzadə Maya Vaqif qızı
Xəlilova Arzu Sərhəddin qızı
Musayeva Samirə Fəxrəddin qızı
Rəhimli Elşən Moqif oğlu
Yadigarov Fariz Məhəmməd oğlu
Yunusov Məhəmməd İlham oğlu

**"Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə**

Hacıyev Fərid Məzahir oğlu
Həsənov Nicat Nizami oğlu
Namazlı Elçin Alim oğlu
Yusifov Elnur Əli oğlu.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 9 fevral 2019-cu il.**

## Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında 2019-2021-ci illər üçün elm, təhsil, mədəniyyət və incəsənət sahəsində Əməkdaşlıq Proqramının təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında 2019-2021-ci illər üçün elm, təhsil, mədəniyyət və incəsənət sahəsində 2018-ci il noyabrın 22-də Aşqabad şəhərində imzalanmış Əməkdaşlıq Proqramı təsdiq edilsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmanın 1-ci hissəsində göstərilən Əməkdaşlıq Proqramının müddəalarının həyata keçirilməsini təmin etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 7 fevral 2019-cu il.**

# Hacıqabul Sənaye Məhəlləsində “QAZ” avtomobillərinin istehsalı zavodunun təməli qoyulub

*Dəyəri 14 milyon manat olan layihə üzrə zavodda ildə 1000 avtomobil istehsal ediləcək*



**Fevralın 9-da Hacıqabul Sənaye Məhəlləsində “Azərmaş” ASC-nin Rusiyanın “QAZ Qrup” şirkəti ilə birgə həyata keçirdiyi layihə üzrə kommersiya və xüsusi təyinatlı avtomobillərin istehsalı zavodunun təməli qoyulub.**

AZƏRTAC xəbər verir ki, təməlqoyma mərasimində Azərbaycanın iqtisadiyyat naziri Şahin Mustafayev, ölkəmizin Rusiyadakı səfiri Polad Bülbüloğlu, Rusiya Federasiyasının iqtisadi inkişaf naziri Maksim Oreşkinin başçılıq etdiyi nümayəndə heyəti və Rusiyanın ölkəmizdəki səfiri Mixail Boçarnikov iştirak edib.

Məlumat verilib ki, istehsal gücü ildə 1000 ədəd avtomobil olan zavodda 100 yeni iş yerinin yaradılması nəzərdə tutulur. Dəyəri 14 milyon manat olan layihə üzrə anlaşma memorandumu ötən ilin aprelində imzalanıb. Layihənin icraçısı olan “Azərmaş” ASC-yə Hacıqabul Sənaye Məhəlləsinin iştirakçısı statusu verilib. Sənaye Məhəlləsində avtomobil istehsalı zavodunun yaradılması köməkçi sənaye istehsalı və xidmət sahələrinin inkişafı üçün də əlverişli imkan yaradacaq.

Sonra tədbir iştirakçıları zavodda istehsal edilməsi nəzərdə tutulan avtomobil modelləri və Hacıqabul Sənaye Məhəlləsində sahibkarlar üçün yaradılan şəraitlə tanış olub.

İştirakçılara məlumat verilib ki, Hacıqabul Sənaye Məhəlləsində dövlət tərəfindən sahibkarlar üçün bütün zəruri infrastruktur yaradılıb. 20 hektar ərazidə yaradılmış Sənaye Məhəlləsi 10 min kvadratmetr olan 4 istehsal təyinatlı binadan, 937 kvadratmetrlik inzibati və texniki binalardan ibarətdir. Hacıqabul Sənaye Məhəlləsinin inzibati binasında toplantı və təlimlərin keçirilməsi üçün iclas otağı, məhəllənin iştirakçılarına müxtəlif xidmətlər göstərəcək müasir ofis sahələri, sərgi-satış mərkəzi, tibb məntəqəsi, poçt, yeməkxana və Sənaye Məhəlləsinin idarəedici təşkilatının istifadəsi üçün nəzərdə tutulan sahələrdən ibarətdir. Sənaye Məhəlləsində sahibkarlara mühasibatlıq, hüquq, bank və sığorta, poçt və internet, logistika, tibbi xidmətlər göstəriləcək. Hacıqabul Sənaye Məhəlləsində ümumi dəyəri 60 milyon manatdan çox olan 7 layihə üzrə maşınqayırma, kompozit materialları, avtomobil, tikinti materiallarının istehsalı üçün avadanlıqlar, gübrə, plastik qablar, tikinti materialları istehsalında istifadə olunan avadanlıqların istehsalı sahələri yaradılıb. Bu layihələr çərçivəsində 900-dən çox iş yerinin yaradılması nəzərdə tutulur. Hazırda istehsal sahələrində avadanlıqların yerləşdirilməsi və istehsala digər hazırlıq işləri aparılır.

Sonra Hacıqabul Sənaye Məhəlləsində Azərbaycan və Rusiya nümayəndə heyətlərinin görüşü keçirilib.

İqtisadiyyat naziri Ş.Mustafayev Azərbaycan və Rusiyanın siyasi əlaqələrinin yüksək səviyyədə olduğunu, əməkdaşlığın bütün sahələrdə inkişaf etdiyini, əlaqələrin genişlənməsinin iki ölkə prezidentlərinin siyasi iradəsinin göstəricisi olduğunu vurğulayıb. Diqqətə çatdırıb ki, təkcə ötən il Azərbaycan Prezidenti İlham Əliyev Rusiya Federasiyasına 3 dəfə səfər edib, Rusiya Prezidenti Vladimir Putinin ölkəmizə rəsmi səfəri çərçivəsində isə Bakıda IX Azərbaycan-Rusiya Regionlararası Forumu keçirilib, iqtisadiyyatın bir sıra sahələrində birgə əməkdaşlığa dair dəyirmi masalar təşkil olunub.

Qeyd edilib ki, Azərbaycan-Rusiya əlaqələrinin əsas istiqamətlərindən biri də iqtisadi-ticarət və qarşılıqlı investisiya qoyuluşlarıdır. Azərbaycan Rusiya iqtisadiyyatına 1 milyard dollardan çox, Rusiya isə Azərbaycana 4,2 milyard dollardan artıq sərmayə yatırıb. “SOCAR Polymer” layihəsi, Pirallahı Sənaye Parkında əczaçılıq müəssisəsinin yaradılması, Gəncə Avtomobil Zavodunun Rusiyanın “Kamaz” və “Ural” zavodları ilə əməkdaşlığı və sair qarşılıqlı investisiya qoyuluşu sahəsində önəmli layihələrdir.



Bildirilib ki, Azərbaycanın sənaye, tikinti, ticarət, xidmət, bank və sığorta, rabitə, nəqliyyat, kənd təsərrüfatı sahələrində 700-dən çox Rusiya kapitallı şirkət fəaliyyət göstərir. Rusiya şirkətləri bir sıra layihələrdə podratçı qismində də iştirak edir.

Nəqliyyat-tranzit yükdaşımaları sahəsində ikitərəfli əməkdaşlığın uğurlu istiqamətlərindən olduğunu vurğulayan Ş.Mustafayev mühüm layihələrdən olan “Şimal-Cənub” Beynəlxalq Nəqliyyat Dəhlizinin əhəmiyyətini diqqətə çatdırıb. Nazir, Rusiya ilə birgə həyata keçirilən Samur çayı üzərindən körpünün tikintisinin iqtisadi-ticarət, nəqliyyat-tranzit əməkdaşlığının inkişafına önəmli töhfə verəcəyini qeyd edib.



Rusiyanın iqtisadi inkişaf naziri M.Oreşkin dost və qonşu ölkələr olan Rusiya və Azərbaycanın dövlət başçılarının qarşılıqlı səfərlərinin, keçirilən intensiv görüşlərinin və imzalanan sənədlərin ölkələrimiz arasında əməkdaşlığın inkişafına böyük stimul verdiyini vurğulayıb. Nazir iqtisadi sahədə əlaqələrin inkişafı üçün böyük potensialı qeyd edərək bu gün təməli qoyulan “QAZ” avtomobilləri istehsalı zavodunun uğurlu layihə olacağını diqqətə çatdırıb.

İqtisadiyyatın müxtəlif sahələrində əlaqələrin inkişafı istiqamətləri barədə fikirlərini bölüşən rusiyalı nazir Hacıqabul Sənaye Məhəlləsində sahibkarlar üçün yaradılan əlverişli imkanlardan məmnunluğunu ifadə edib.

Görüşdə Azərbaycan və Rusiyanın iqtisadi-ticarət, nəqliyyat-tranzit, sənaye, kənd təsərrüfatı, humanitar və digər sahələrdə əməkdaşlığının inkişafı məsələləri müzakirə olunub.

**AZƏRTAC**

*Müdafiə naziri:*

# Ali Baş Komandanın qarşımızda qoyduğu tapşırıqlar gündəlik xidmətimizdə əks olunmalıdır

**Fevralın 9-da Mərkəzi Komanda Məntəqəsində müdafiə naziri, general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə xidməti müşavirə keçirilib.**



Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, müşavirədə nazir müavinləri, qoşun növləri komandanları, nazirliyin baş idarə, idarə və xidmət rəisləri, birlik komandirləri iştirak ediblər.



Birləşmə komandirləri və digər məsul zabitlər də videobağlantı vasitəsilə müşavirəyə cəlb olunublar.

General-polkovnik Zakir Həsənov yeni tədris dövründə qoşun növləri, birlik, birləşmə və hərbi hissələrdə döyüş hazırlığı üzrə məşqlərin müvafiq direktiv və təlimatlara uyğun olaraq daha səmərəli və keyfiyyətli təşkili, rəhbəredici sənədlərin dərindən öyrənilməsi, eləcə də peşəkarlığın artırılmasına yönəlmiş digər tədbirlərin keçirilməsi ilə bağlı fikirlərini diqqətə çatdırıb.

Müdafiə naziri Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin ordu quruculuğu ilə bağlı qarşıya qoyduğu tapşırıqlar, o cümlədən torpaqlarımızın işğaldan azad edilməsi ilə əlaqədar səsləndirdiyi tövsiyə və tələblərin gündəlik fəaliyyətdə əks etdirilməsini tapşırıb.

Ali Baş Komandanın tapşırığına əsasən, 2019-cu ildə də Azərbaycan Ordusunda, xüsusilə cəbhəboyu zonada yerləşən hərbi hissələrdə şəxsi heyətin döyüş hazırlığının yüksəldilməsi və sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində fəaliyyətin davam etdiriləcəyini bildirən general-polkovnik Zakir Həsənov bu sahədə yerinə yetirilən işlərin müasir tələblərə uyğun aparılması ilə əlaqədar cavabdeh vəzifəli şəxslərə müvafiq göstərişlər verib.

Müdafiə naziri döyüş hazırlığının daha keyfiyyətli təşkili, hərbi peşəkarlıq səviyyəsinin artırılması, islahatların davam etdirilməsi, ideoloji işin və mənəvi-psixoloji təminatın gücləndirilməsi və digər xidməti məsələlərin həlli ilə bağlı tapşırıqlar verib.

Müşavirənin yekununda müdafiə naziri bütün səviyyələrdən olan komandir və rəis heyətinə düşmənin hər bir təxribatına adekvat cavab verməlləri və onun fəaliyyətinin qarşısının qətiyyətlə alınması barədə əmr və tələblərini çatdırıb.

**AZƏRTAC**

# Zəlzələnin nəticələrinin aradan qaldırılması istiqamətində zəruri tədbirlər davam etdirilir



**Fövqəladə hallar nazirinin müavini, general-leytenant Etibar Mirzəyev və nazirliyin müvafiq strukturlarının rəhbər şəxsləri zəlzələnin baş verdiyi Şamaxı rayonunda təbii fəlakətin nəticələrinin aradan qaldırılması istiqamətində görülən işlərin gedişi ilə tanış olmaq məqsədilə bölgəyə səfər ediblər.**

Fövqəladə Hallar Nazirliyindən (FHN) AZƏRTAC-a bildiriblər ki, nazir müavini və aidiyyəti qurumların rəhbərləri zəlzələ nəticəsində zərər çəkmiş binaların vəziyyəti ilə tanış olduqdan sonra yerli sakinlərlə söhbət ediblər. Qeyd olunub ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına əsasən, zəlzələnin nəticələrinin aradan qaldırılması məqsədilə FHN və aidiyyəti dövlət qurumları müvafiq işlər görür və bu istiqamətdə təxirəsalınmaz tədbirlər həyata keçirir.

Hazırda Fövqəladə Hallar Nazirliyinin Mülki Müdafiə Qoşunları, Xüsusi Riskli Xilasetmə Xidməti, Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin və Şimal-qərb Regional Mərkəzinin qüvvə və texnikası təbii fəlakət zonasında zəlzələnin nəticələrinin aradan qaldırılması istiqamətində fasiləsiz çalışırlar.

**AZƏRTAC**



# “Vətən sərhəddən başlayır - sərhədlərimiz milli dəyərimizdir” mövzusunda seminar

**Dövlət Sərhəd Xidməti ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin birgə tədbirlər planına uyğun olaraq fevral ayının 7-də Göytəpə Sərhəd Dəstəsinin qarnizonunda “Vətən sərhəddən başlayır - sərhədlərimiz milli dəyərimizdir” mövzusunda seminar keçirilmişdir.**

Azərbaycan Sərhəd Mühafizəsinin 100 illik yubileyi ərəfəsində keçirilən seminardan öncə hərbi qulluqçular və dəvət olunmuş qonaqlar hərbi hissədə Heydər Əliyev İdeoloji Mərkəzində Ulu Öndərin həyat və fəaliyyətini əks etdirən zəngin foto-ekspozisiya ilə tanış olmuş və Dahi Öndərin əziz xatirəsini yad edərək büstü önünə gül dəstələri düzmüşlər.

Dövlət Himninin səsləndirilməsi ilə başlanan seminarda Vətən uğrunda canlarını fəda etmiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Masallı bölgəsi üzrə şöbə müdiri Miryəhya Bəbirovun iştirakı ilə keçirilən seminarda bildirilib ki, əsas məqsəd ölkəmizdə vətənpərvər və sağlam düşüncəli gənclərin yetişdirilməsi, onları Vətəninə, onun sərhədlərinə hədsiz məhəbbət, xalqının tarixinə, mədəniyyətinə və milli-mənəvi dəyərlərinə hörmət ruhunda tərbiyə etmək, gənclərdə sərhədçi peşəsinə marağı artırmaq, eləcə də dini fanatizm, radikalizm və ekstremizm meyillərinə qarşı preventiv tədbirlərlərin həyata keçirilməsidir.





Tədbirdə çıxış edənlər Ulu Öndər Heydər Əliyevin dövlət sərhədlərimizin qorunması, Azərbaycan sərhəd mühafizəsinin formalaşması və inkişafı istiqamətindəki xidmətlərini, böyük dövlət xadiminin müəyyənləşdirdiyi milli sərhəd strategiyasının Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilməsi sayəsində ölkəmizin sərhəd mühafizəsinin ən müasir tələblər səviyyəsinə qaldırılmasını, Ermənistan ilə dövlət sərhədinin Qazax və Ağstafa rayonları ərazisindən keçən hissəsinin mühafizəsinin DSX-nın Sərhəd Qoşunlarına həvalə olunmasının isə şərəf və qürur olmaqla yanaşı, eyni zamanda Ali Baş Komandanın Azərbaycan sərhədçisinə olan etimad və etibarının ifadəsi kimi dəyərləndirmişlər. Eyni zamanda sərhədlərimizin mühafizəsinin təşkili zamanı şücaət göstərmiş sərhədçilərimizin qəhrəmanlıqlarından danışılmış və onların göstərdikləri igidliklər hər bir gəncə, sərhədçiyə örnək olması xüsusi qeyd edilmişdir.

Seminarda dini amillərdən yararlanaraq radikallığa cəhd göstərən qüvvələrə qarşı mübarizədə hamının, xüsusən gənc nəslin sayıqlıq göstərməsinin zəruriliyi vurğulanmışdır.

Tədbirin sonunda dini radikalizmin törətdiyi fəsadlara həsr edilmiş “Şəhadət” sənədli filmi nümayiş etdirilmişdir.

**Dövlət Sərhəd Xidmətinin mətbuat mərkəzi.**

# Beynəlxalq məhkəmə müsabiqəsinin Azərbaycan üzrə seçim mərhələsinin final raundu keçirilib

**Fevralın 9-da Azərbaycan Respublikasının Vəkillər Kollegiyasının dəstəyi ilə ADA Universitetində Filip Cessup beynəlxalq məhkəmə müsabiqəsinin Azərbaycan üzrə seçim mərhələsinin final raundu keçirilib. Bu müsabiqə Azərbaycanda 13 illik fasilədən sonra ilk dəfə təşkil olunur.**

AZƏRTAC xəbər verir ki, müsabiqənin məqsədi ölkəmizdə gənc hüquqşünaslar arasında məhkəmə müsabiqələrinə, vəkil peşəsinə marağın artırılması ilə yanaşı, hüquqşünas tələbələrin beynəlxalq arenaya çıxışının intensivləşməsinə təkan verməkdir.




Müsabiqənin Azərbaycan raundunda Bakı Dövlət Universitetinin və Dövlət Gömrük Komitəsi Akademiyasının hüquq fakültələrinin komandaları iştirak ediblər. Beynəlxalq Ədalət Məhkəməsində baxılan xəyali iş üzrə keçirilən müsabiqə yeni yaranan və aktual beynəlxalq hüquq problemlərinə dair məsələləri əhatə edib.

Komandaların gərgin və maraqlı mübarizəsinin sonunda Bakı Dövlət Universitetinin təmsilçiləri qalib adını qazanıblar.

Müsabiqə hüquqşünas tələbələrin vəkillik, hüquqi təhlil, yazı və müdafiə bacarıqlarını sınağa çəkir və onlarda bu sahələr üzrə zəngin təcrübə formalaşdırır. Bununla da gənc hüquqşünaslar tələbəlik illərindən beynəlxalq məhkəmə təcrübəsinin yaxından iştirakçısına çevrilirlər. Ölkəmizdə beynəlxalq səviyyəli gənc vəkillərin yetişməsində belə yarışların önəmini nəzərə alan Vəkillər Kollegiyası növbəti illərdə də bu müsabiqənin milli seçimlərinə dəstək verəcək.

Filip Cessup beynəlxalq məhkəmə müsabiqəsinin bu il 60 illiyi tamam olur. Ümumilikdə 100-ə qədər ölkədəki 700 hüquq məktəbində təhsil alan 3 min tələbənin qatıldığı müsabiqənin milli raundlarında qalib gələn komandalar Vaşinqtonda keçiriləcək beynəlxalq raundlarda iştirak edəcək.

Bu müsabiqənin Azərbaycan seçimlərinə Vəkillər Kollegiyasının dəstək verməsi təsadüfi deyil. Belə ki, son bir ildə sürətlə inkişaf edən vəkillik institutunun bazası olan hüquqşünas tələbələrin hələ tələbəlik dövründə vəkillik bacarıqlarının inkişafına dəstək vermək Kollegiyanın uzunmüddətli perspektivdə qarşısına qoyduğu hədəflərdən biridir. Məsələnin aktuallığı həm də Azərbaycan Respublikası Prezidentinin ötən il fevralın 22-də imzaladığı “Azərbaycan Respublikasında vəkilliyin inkişafı ilə bağlı əlavə tədbirlər haqqında” Sərəncamdan irəli gəlir. Sərəncama əsasən, Azərbaycan Respublikasının Vəkillər Kollegiyasına yeni üzvlərin, xüsusən gənc hüquqşünasların qəbul edilməsi üçün şərait yaradılması Kollegiyaya tövsiyə olunub.

**AZƏRTAC**

# Şamaxıda zəlzələ nəticəsində yararsız vəziyyətə düşən evlərin sökülməsinə başlanılıb



**Şamaxıda baş verən zəlzələnin nəticələrini aradan qaldırmaq istiqamətində tədbirlər davam etdirilir.**

Rayon fövqəladə hallar komissiyasından AZƏRTAC-ın bölgə müxbirinə bildirilib ki, Prezident İlham Əliyevin Şamaxıya səfəri zamanı zəlzələnin fəsadlarının təcili aradan qaldırılması istiqamətində verdiyi tapşırıqların dərhal icrasına başlanılıb. Belə ki, şəhərin Salman Mümtaz 33, Vidadi Məmmədov 7, Hacı Məmmədov 23 və Səttat Bəhlulzadə 10 ünvanlarında yerləşən qəzalı evlərin yenidən tikilməsi üçün söküntü işlərinə start verilib. Həmin evlərin sahibləri isə kirayə mənzillərə yerləşdirilib.

Fövqəladə Hallar Nazirliyinin və rayon icra hakimiyyətinin nümayəndələrindən ibarət komissiya vəziyyətin araşdırılması, zərərin tam müəyyənləşdirilməsi istiqamətində fəaliyyətini davam etdirir.

**AZƏRTAC**






## 232 min tondan artıq “ağ qızıl”

**Dövlət başçısı cənab İlham Əliyevin yürütdüyü səmərəli aqrar siyasət nəticəsində son illər ölkəmizdə pambıqçılıq bərpa olunaraq inkişaf etməkdədir. Sahənin problemlərinə və perspektivinə həsr edilmiş Sabirabad, Saatlı, Bərdə müşavirləri pambıqçılığın inkaşafında əhəmiyyətli rol oynayıb. Nəticədə sahə intensiv (yəni məhsuldarlığı artırmaq) yolla irəliyir.**

**Dövlət Statistika Komitəsi xəbər verir ki, bu il yanvarın 8-dək sahələrdən 232 min tondan artıq “ağ qızıl” toplanıb. Bu, 2017-ci ildə olduğundan 25 min ton çoxdur. Beləliklə, pambıqçılığın ildən-ilə inkişaf tempi 112 faizə bərabərdir. Qeyd edək ki, ötənilki pambıqçılıqda əsas hədəf intensiv üsul seçilmişdir. Yəni əkin sahələri azaldılaraq mövcud əkin sahələrinin məhsuldarlığı yüksəldilmişdir. Beləliklə, 25 min ton “ağ qızıl” artımına rəğmən əkin sahələri 136 min hektardan 132 min hektara endirilib, yəni 5 min hektar azaldılıb.**

**Saatlı rayon əməkçiləri, hər il olduğu kimi, ötən il də pambıq yarışı cədvəlinə liderlik edib. 30 min tondan artıq “ağ qızıl” toplayıb (2017-ci ildə olduğundan 5 min ton çox).**

**Bərdə rayonu 25 min tondan, Ağcabədi rayonu 23 min tondan artıq məhsul toplayaraq II-III yerləri bölüşüblər. Biləsuvar və Beyləqan rayonlarının hər biri 20 min tondan artıq “ağ qızıl” toplayaraq ilk beşlikdə yer alıblar.**

**Pambıqçılarımıza uğur olsun!**



## Dən üçün qarğıdalı

**Kənd təsərrüfatının vacib sahələrindəndir. Onun sahələri ölkəmizdə 30-32 min hektar civarındadır. Ötən il 31,8 min hektar sahədə əkilib və yığımı payızda başa çatıb. Sahələrinin bir qədər azalmasına rəğmən, istehsal azalmayıb - 226,9 min ton. Yeri gəlmişkən qeyd edək ki, 2017-ci ildəki hər hektardan məhsuldarlıq (63,6 sentner) xeyli yüksələrək 71,5 sentnerə qalxıb. Bu barədə DSK məlumat verib.**

**Qeyd edək ki, dən üçün qarğıdalı qiymətli ərzaq məhsuludur və onu cox vaxt taxılla birgə hesablayırlar, yəni bu kateqoriyaya aiddir.**



## Şəkər çuğunduru

**Ölkəmizdə yeni sahə (əkin kimi) olmasına rəğmən, geniş yayılıb. Bu, respublikamızda şəkər zavodlarının fəaliyyətə başlaması ilə əlaqədardır. Ötən il 8561 hektar sahədə şəkər çuğunduru yetişdirilib və 01 noyabr 2018-ci il tarixə həmin sahələrin məhsulu yığılıb. Bu barədə DSK məlumat açıqlayıb.**

**285 min tona yaxın şəkər çuğunduru istehsal olunub ki, bu da hər hektardan 332,7 sentner məhsul deməkdir. Qeyd edək ki, bu, məhsuldarlıqda rekord göstəricidir.**



## Dən üçün günəbaxan

**Dən üçün günəbaxan da təsərrüfatda bizim üçün yeni sahədir. Əvvəllər tək-tək adamlar tərəfindən əkildiyi halda, indi onun becərilməsi kütləviləsib. İndi onun əkin sahəsi 12 min hektara belə yaxınlaşıb.**

**01 noyabr 2018-ci il tarixə olan məlumata əsasən, yığımı başa çatıb. 25 min tona yaxın məhsul əldə olunub. Bu, hər hektardan 21 sentnerə yaxın məhsul deməkdir.**

**N.CAVADOV,**
**“Respublika”.**

## ARDNF: valyuta satışı ilə bağlı açıqlama




**Dövlət Neft Fondu tərəfindən 2019-cu ilin yanvar ayı ərzində satılan vəsaitin həcmi barədə açıqlama verilib. Məlumatda bildirilir ki, göstərilən müddətdə hərraclar vasitəsilə 634,9 milyon ABŞ dolları məbləğində valyuta satışı həyata keçirilib.**

**Müqayisə üçün bildirək ki, bu, ötən ilin müvafiq dövrü ilə nisbətdə 335,8 milyon dollar və ya 2,1 dəfə çoxdur. Qeyd edək ki, 2018-ci ilin yanvar ayında realizə olunan vəsaitin məbləği 299,1 milyon ABŞ dolları məbləğində olmuşdur.**

## “Azəriqaz” İB “ASAN xidmət” vasitəsilə 28759 istehlakçıya xidmət göstərib



**2019-cu ilin yanvar ayı ərzində Bakı şəhəri üzrə 1 və 2 saylı “ASAN kommunal”, 4, 5 saylı “ASAN xidmət” mərkəzlərinə və “Səyyar ASAN” xidmətinə, eyni zamanda Bərdə, Sabirabad, İmişli, Masallı, Qəbələ, Quba, Mingəçevir, Şəki, həmçinin Gəncə şəhərində yerləşən “ASAN xidmət” mərkəzlərinə ümumilikdə 28759 müraciət daxil olmuşdur.**

**SOCAR-ın “Azəriqaz” İstehsalat Birliyi tərəfindən smart tipli sayğaclar ilə təchiz olunmuş istehlakçıların müraciətləri diqqətlə araşdırılmış, ortaya çıxan problemlərlə əlaqədar xidmət mərkəzlərinin şöbələrindən lazımi məlumatların alınması və çatışmazlıqların aradan qaldırılması istiqamətində müvafiq xidmətlər göstərilmişdir.**

**Abonentlərlə münasibətlərin təkmilləşdirilməsi və göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi yolu ilə istehlakçıların məmnunluğunun təmin edilməsi Birlik kollektivinin başlıca iş xüsusiyyətlərindəndir.**

## Yanvar ayında qonşu ölkələrə 191.9 milyon kvt/s elektrik enerjisi ixrac edilib



**“Azərenerji” ASC ötən ay ərzində 2.126 milyard kvt/s elektrik enerjisi istehsal edib. Bu isə ötən ilin müvafiq dövrü ilə müqayisədə (2.123 milyard kvt/s) 3 milyon kvt/s çoxdur.**

**Yanvar ayında istehsal edilən 2.126 milyard kvt/s elektrik enerjisindən 191.9 milyon kvt/s qonşu ölkələrə ixrac olunub.**

**Səfər MAHMUDZADƏ,**
**“Respublika”.**

azərpoçt

şəbəkə



## Ötən 2 il ərzində 2 milyona yaxın vətəndaş “Şəbəkə” mərkəzlərinin xidmətlərindən istifadə edib

**Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin (NRYTN) təşəbbüsü ilə “Azərpoçt” MMC-nin tərkibində yaradılan “Şəbəkə” xidmət mərkəzlərinin fəaliyyətə başlamasından 2 il keçir.**

Bu münasibətlə bir sıra tədbirlərin keçirilməsi nəzərdə tutulur. İlk olaraq “Şəbəkə” xidmət mərkəzinin “Facebook” sosial şəbəkəsindəki rəsmi səhifəsində - https://www.facebook.com/shebeke.az/ 8 fevral 2019-cu il tarixində müsabiqə keçirilmiş, müsabiqədə iştirak edən “Şəbəkə” mərkəzlərinin göstərdiyi xidmətlər barədə 3 suala doğru cavabı yazan ilk 5 izləyici qalib olmuşdur. Qaliblər 10 fevral tarixində “Azərpoçt” MMC tərəfindən smartfon telefonlarla mükafatlandırılacaq. Eyni zamanda, həmin gün “Şəbəkə”nin fəaliyyətində xüsusi fərqlənən əməkdaşlara da təşəkkürnamələr təqdim olunacaq. Hazırda respublika üzrə 9 “Şəbəkə” xidmət mərkəzi fəaliyyət göstərir. Onlardan 6-sı paytaxt Bakıda, digər 3-ü isə Cəlilabad, Zaqatala və Sumqayıt şəhərlərində yerləşir. “Şəbəkə” xidmət mərkəzlərində Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin 8 qurumu tərəfindən vətəndaşlara göstərilən xidmətlər vahid məkanda cəmləşib. “Şəbəkə” mərkəzlərinin yaradılmasında əsas məqsəd yüksək standartlara uyğun xidmət göstərilməsi, vətəndaşların rahatlığının təmin edilməsi, əlavə vaxt itkisinin qarşısının alınması və şəffaflığın artırılmasıdır.

Bu mərkəzlərdə əhaliyə ənənəvi telekommunikasiya və poçt xidmətləri ilə yanaşı, aviabilet satışı və turizm xidmətləri də göstərilir. Eyni zamanda “Şəbəkə” xidmət mərkəzlərində lokal və beynəlxalq ödəniş kartlarının, icbari sığorta, zərf, marka və açıqcaların satışı, pul köçürmələri, büdcə, kommunal, Dövlət İpoteka Fondu üzrə ödənişlər, mobil cihazların İMEİ qeydiyyatı həyata keçirilir. Burada müştərilər xüsusi özünəxidmət terminallarından da istifadə edə bilirlər. “SmartPay” ödəniş sistemi vasitəsilə kommunal, mobil, rabitə və bir çox digər xidmətlər üzrə ödəniş imkanı yaradılıb.

Vətəndaşlara fasiləsiz olaraq həftəiçi hər gün, eyni zamanda şənbə və bazar günləri xidmət göstərilir. 169 Çağrı mərkəzi həftənin bütün günləri 24 saat ərzində fəaliyyətdədir. Eyni zamanda, “Azərpoçt” MMC-nin rəsmi saytındakı onlayn konsultasiya vasitəsilə də müraciətlər qəblul edilir. Qeyd edək ki, cari ilin yanvar ayı da daxil olmaqla 2 milyona yaxın vətəndaş mövcud “Şəbəkə” mərkəzlərində müxtəlif xidmətlərdən faydalanıb. “Şəbəkə” xidmət mərkəzlərinin Bakının bütün rayonlarını əhatə etməsi üçün tədbirlər görülür. Xidmət mərkəzlərinin respublikanın bütün iri şəhər və rayonlarında da istifadəyə verilməsi nəzərdə tutulub.

**Əli SADIQOV,**
**“Respublika”.**

## Ölkəmizin iri taxıl istehsalçıları (2018-ci ilin yekunu)

| | | |
|---|---|---|
| 1. | Şəki | - 222 min ton (qarğıdalısız) |
| 2. | Cəlilabad | - 178 min tona yaxın (qarğıdalısız) |
| 3. | Kürdəmir | - 136,7 min ton (qarğıdalısız) |
| 4. | Neftçala | - 121 min ton (qarğıdalısız) |
| 5. | Ağcabədi | - 111 min ton (qarğıdalısız) |
| 6. | Füzuli | - 109 min tona yaxın (qarğıdalısız) |
| 7. | İsmayıllı | - 103 min ton (qarğıdalısız) |
| 8. | Ağsu | - 100 min ton (qarğıdalısız) |
| 9. | Sabirabad | - 97 min ton (qarğıdalısız) |
| 10. | Saatlı | - 93 min tona yaxın (qarğıdalısız) |

*Məlumat DSK-nin 01 noyabr 2018-ci il tarixli məlumatına əsasən hazırlanıb.*

## “Ağ qızıl” toplanmasında ilk beşlik

| | | |
|---|---|---|
| 1. | Saatlı | - 30 min ton |
| 2. | Bərdə | - 25 min ton |
| 3. | Ağcabədi | - 23 min ton |
| 4. | Biləsuvar | - 22 min ton |
| 5. | Beyləqan | - 21 min ton |

MADE IN AZERBAIJAN

## Azərbaycan məhsulları Berlində “Fruit Logistica” sərgisində nümayiş olunur

**Almaniyanın paytaxtı Berlində “Fruit Logistica 2019” beynəlxalq meyvə və tərəvəz sərgisi öz işinə başlayıb.**

**AZƏRTAC xəbər verir ki, sərgidə İqtisadiyyat Nazirliyinin dəstəyi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun təşkilatçılığı ilə meyvə və tərəvəz istehsalı sahəsində fəaliyyət göstərən 14 Azərbaycan şirkəti öz məhsullarını “Made in Azerbaijan” vahid ölkə stendində təqdim edir.**

**Azərbaycanın Mərkəzi Avropa ölkələri üzrə ticarət nümayəndəsi Nemət Nağdəliyev ziyarətçilərin milli stendimizdə sərgilənən yüksək keyfiyyətə malik məhsullardan olduqca məmnun qaldıqlarını bildirib.**

**Azərbaycanda torpaqların çox məhsuldar olduğunu deyən sərgi iştirakçısı Mikael Neefs bildirib: “Mən qulançar bitkisinin yetişdirilməsi ilə məşğul oluram. Məsələn, Azərbaycanda qulançar mövsümü Avropadan daha tez başlayır. Azərbaycan qulançarın tez böyüdülməsi üçün əlverişli ölkədir. Azərbaycan torpaqlarında məhsuldarlıq çox yüksəkdir, həmçinin ölkənizin meyvə-tərəvəzi çox dadlıdır”.**

**Digər sərgi iştirakçısı Alis Çinq Çiu isə deyib: “Azərbaycan stendində alma qurusunun dadına baxdım, çox xoşuma gəldi. Sanki onu sizin qabağınızda hazırlayırlar və siz onun təzə olduğunu görürsünüz. Bu alma qurusunu Çində çox bəyənirlər. Sağlam yemək hesab olunur. Çində sağlam yeməyə çox fikir verirlər. Buna görə Azərbaycan stendi məni cəlb etdi. Mən buraya gəldim və bu məhsullardan hansının Çində satıla biləcəyinə baxdım. Bildiyiniz kimi, bizim Şərq mətbəxinə və mədəniyyətinə böyük marağımız var”.**





**Azərbaycanın sərgidəki təqdimatının çox gözəl olduğunu vurğulayan Samir Elkhalifav bildirib: “Bu sərgi Azərbaycanın yerli məhsullarını tanıtmaq üçün yaxşı fürsətdir. Hər hansı bir məhsulu gözəl təqdim edəndə, ona qarşı maraq yaranır və onu alırlar. Burada hər şey yüksək səviyyədə təşkil edilib. İş adamları bu məhsulları özləri birbaşa Azərbaycandan idxal edə bilərlər və bunun üçün heç kimi gözləməməlidirlər”.**

**Əslən çinli olan və 10 ildir Berlində yaşadığını deyən Sofi Zhe Li iki il əvvəl Bakıya səfər etdiyini bildirib. “Azərbaycana səfərimdən çox razı qaldım. Hazırda Dubayda supermarket üçün çalışıram və Azərbaycandan alma satıcısı axtarıram. Çünki sizin almaların dadına baxdım, çox dadlıdırlar. Azərbaycan almalarını Dubay bazarına çıxarmaq üçün danışıqlar aparıram”.**

**Dünyanın 80-dən çox ölkəsindən 3 mindən artıq şirkətin məhsullarının nümayiş olunduğu “Fruit Logistica” sərgisinin virtual kataloqlarında, meqa-bordlarında, bannerlərində Azərbaycan barədə məlumatlar yerləşdirilib. Bundan başqa, sərgidə “Made in Azerbaijan” brendinin reklam çarxları nümayiş olunur, ziyarətçilərə müxtəlif çap materialları paylanılır.**

**Qeyd edək ki, beynəlxalq sərgi və yarmarkalarda vahid ölkə stendi ilə iştirak ölkəmizin qeyri-neft məhsullarının “Made in Azerbaijan” adı altında tanıdılması və təşviq edilməsi məqsədilə təşkil olunan dəstək tədbiridir. Vahid brend altında öz məhsullarını təqdim etmək istəyən yerli şirkətlər ixracatçının məhsul üzrə istehsal potensialı, həmçinin hədəf ölkəyə və ya ölkələrə ixrac potensialı meyarına görə qiymətləndirilir.**

**AZƏRTAC**




## Poçt şöbəsi yenidənqurmadan sonra istifadəyə verildi

Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi “Azərpoçt” MMC Bakıda tam müasir standartlara uyğun olaraq yenidən qurulmuş 2 poçt şöbəsini istifadəyə verib. İstiqlaliyyət küçəsi 53 və Səməd Vurğun küçəsi 145 ünvanlarında yerləşən 1 və 22 saylı poçt şöbələri “Azərpoçt” MMC-nin yeni brendinə uyğun olaraq dizayn edilib. Burada vətəndaşlara yüksək xidmət üçün bütün şərait yaradılıb. Yenidənqurmadan sonra sözügedən poçt şöbələrində vətəndaşlar növbə aparatından istifadə edə, öz poçt göndərişlərini rahatlıqla yollaya və qəbul edə biləcəklər.

Eyni zamanda, depozit və kredit istisna olmaqla, bütün maliyyə xidmətlərindən də yararlanmaq, “SmartPay” ödəniş sistemi vasitəsilə kommunal, mobil, rabitə və bir çox digər xidmətlər üzrə də ödəniş etmək mümkündür. Bundan başqa, 22 saylı poçt şöbəsində həftənin 7 günü 24 saat ərzində valyuta mübadiləsi əməliyyatlarını həyata keçirtmək imkanı yaradılıb.

Poçt filial və şöbələrinin modernləşdirilməsində əsas məqsəd vətəndaşlara yüksək standartlara uyğun xidmət göstərmək və onların rahatlığının təmin edilməsi, əlavə vaxt itkisinin qarşısının alınması, şəffaflığın artırılmasıdır.

Vurğulayaq ki, “Azərpoçt” MMC-nin tabeçiliyində 63 Poçt filialı, 7 Rabitə qovşağı, 4 törəmə müəssisə, 1497 Poçt şöbəsi və 83 Poçt agentliyi fəaliyyət göstərir.

**Əli SADIQOV,**
**“Respublika”.**



## Martın ilk hərracı - 82 dövlət əmlakı özəlləşmədə

**Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən keçirilən hərraclar özəl sektorun inkişafını stimullaşdırır. Özəlləşdirilən dövlət əmlaklarının müasir formada yenidən qurulması ilə daxili istehsal artır, regionlar üzrə sahibkarlıq fəaliyyəti genişlənir. Belə müəssisələrin uğurlu fəaliyyəti digər investorları özəlləşdirmə prosesində iştiraka həvəsləndirir. Rahat seçim, sifariş və iştirak prosedurlarının olduğu növbəti hərraclardan biri 5 mart tarixində keçiriləcək. Martın ilk özəlləşdirilmə hərracına ümumilikdə 82 dövlət əmlakı çıxarılıb. Dövlət əmlaklarından 36-sı kiçik dövlət müəssisə və obyekti, 23-ü səhmdar cəmiyyəti, 7-si qeyri-yaşayış sahəsi, 4-ü yarımçıq tikili, 12-si isə nəqliyyat vasitəsidir.**

**Budəfəki hərracda özəlləşməyə çıxarılan kiçik dövlət obyektlərinə Şəmkirdə balıq zavodu, Şabran və Balakəndə mehmanxanalar, digər şəhər və rayonlarda mağaza, yeməkxana, şadlıq evləri və kinoteatr kimi müəssisələr aiddir. Hərraca çıxarılan kiçik dövlət müəssisələrinin ümumi faydalı sahəsi 7.5 kv.m ilə 9 min 297 kv.m arasındadır. Saatlıda yerləşən bu növ dövlət əmlaklarının isə ümumi faydalı sahəsi 420 kv.m-ə qədərdir. Təmir-tikinti sahəsinə aid olan bu müəssisələri investorlar torpaq sahəsi ilə birgə özəlləşdirə bilər. Şabran şəhəri, M.Ə.Rəsulzadə küçəsindəki “Dəvəçi” mehmanxanası da sərmayəçi üçün maraqlı ola biləcək dövlət əmlaklarındandır. Turizm sektorunda gəlirli fəaliyyət potensialı olan obyektin ümumi faydalı sahəsi 582.5 kv.m, torpaq sahəsi isə 1583.5 kv.m-dir.**

**Biznes fəaliyyətinə yeni başlayanlar üçün maraqlı ola biləcək qeyri-yaşayış sahələrindən 2-si paytaxtda, digərləri Samux, Gəncə və Sabirabadda yerləşir. Hərraca çıxarılan bu növ dövlət əmlakları arasında ən yüksək - 266.7 kv.m ümumi faydalı sahəsi olan obyekt paytaxtın Nərimanov rayonu, F.Yusifov küçəsindədir. Ticarət, iaşə və xidmət fəaliyyəti üçün uyğun olan ümumi faydalı sahə 22.2 kv.m ilə 176.7 kv.m arasındadır.**

**Dövlətə məxsus səhm paketlərinin özəlləşməyə çıxarıldığı səhmdar cəmiyyətləri kəndkimya, nəqliyyat, inşaat, təmir və digər sahələrə aiddir.**

**Nəriman CAVADOV,**
**“Respublika”.**

# Sibirli riyaziyyatçı alim GDU-nun qonağı olub



Rusiya Elmlər Akademiyasının Sibir Bölməsinin S.L.Sobolyov adına Riyaziyyat İnstitutunun və Novosibirsk Dövlət Universitetinin professoru İvan Anatolyeviç Maltsev Gəncə Dövlət Universitetinin qonağı olub. Alimlə görüşən Gəncə Dövlət Universitetinin rektoru, professor Yusif Yusibov qonağı səmimi salamlayaraq, ötən il 80 illik yubileyini təntənə ilə qeyd edən, respublikamızın Qərb bölgəsində yüksəkixtisaslı pedaqoji kadrlar hazırlanmasında zəngin təcrübəyə malik Gəncə Dövlət Universitetinin keçdiyi inkişaf yolu haqqında məlumat verərək bildirilib ki, son illərdə təhsilin bütün istiqamətləri üzrə inkişaf edən universitetdə, elmin ayrı-ayrı sahələrində, eləcə də dəqiq elmlər üzrə yüksək nəticələr qeydə alınıb. Həmçinin, universitet alimlərinin "Web of Sciences" bazasında, bir çox nüfuzlu elmi jurnallarda dərc olunan məqalələrinin sayı artıb. Universitetin beynəlxalq əlaqələrinin coğrafiyasından danışan rektor, professor Yusif Yusibov universitetlər arasındakı akademik mobilliyi, birgə beynəlxalq konfransların və seminarların təşkilini, həmçinin bir sıra qarşılıqlı elmi əməkdaşlığı hər bir ali təhsil müəssisəsinin gələcək inkişafı və ümumdünya təhsil sisteminə inteqrasiyası baxımından yüksək dəyərləndirib.

Azərbaycanın bir sıra elmi və ali təhsil müəssisələrində, eləcə də Gəncə Dövlət Universitetində olmaqdan məmnunluğunu ifadə edən professor İvan Anatolyeviç Maltsev səmimi qəbula görə universitet rəhbərliyinə minnətdarlığını bildirib, kollektivə uğurlar arzulayıb. Görüşün sonunda alimə 75 illik yubileyi münasibəti ilə Gəncə Dövlət Universiteti adından, rektor, professor Yusif Yusibov tərəfindən imzalanmış təbrik təqdim olunub.

Sonra alimin universitetin riyaziyyat-informatika fakültəsində mühazirəsi təşkil edilib. Alimi kollektivə təqdim edən universitetin cəbr və həndəsə kafedrasının müdiri İlqar Cabbarov bildirib ki, İvan Anatolyeviç Maltsev bütün dünyada məşhur olan Maltsev riyaziyyatçılar ailəsinin ən görkəmli nümayəndələrindən biri, riyaziyyatın cəbr sahəsində dünyada geniş tanınan bir elm adamı, eyni zamanda mahir bir pedaqoqdur. Fizika-riyaziyyat elmləri doktoru, professor, təhsil sahəsində Rusiya Federasiyası hökumətinin mükafatı laureatıdır. Onun atası akademik Anatoli İvanoviç Maltsev 20-ci əsrin ən görkəmli cəbrçi-riyaziyyatçılarından sayılır. Ata Maltsev dünyada olduqca məşhur elm mərkəzlərindən biri kimi tanınan SSRİ EA Sibir Bölməsinin yaradıcılarından biridir. İvan Anatolyeviçin əsas elmi-tədqiqat obyekti cəbrin, çoxqiymətli məntiqin və diskret riyaziyyatın birgə istifadə olunması sahələridir. Xeyli elmi əsərin, o cümlədən üç dərsliyin və bir sanballı, elm aləmində mühüm mənbə hesab edilən monoqrafiyanın müəllifidir. Maltsevlər ailəsi bizim ölkəmizdə də riyaziyyatın cəbr, riyazi məntiq, topologiya sahələrinin inkişafında mühüm rol oynayıblar. Qeyd edilib ki, azərbaycanlı riyaziyyatçıların hələ ötən əsrin 70-ci illərindən başlayaraq Maltsevlər ailəsinin ayrı-ayrı üzvləri ilə qurulan dostluq əlaqələri Azərbaycan riyaziyyat elminə öz töhfələrini verməkdədir.

Sonra professor İvan Maltsevin universitetin gənc alimləri, aspirant və doktorantları üçün "Sonlu qiymətli məntiq cəbrlərinin müasir məsələləri" mövzusunda mühazirəsi dinlənilib, riyaziyyatçıları maraqlandıran, suallar cavablandırılıb.

**Zabit XƏLİLOV,**
**"Respublika".**

# PREZİDENTİN TÖVSİYƏLƏRİ BİZİ DAHA FƏAL OLMAĞA ÇAĞIRIR



Fevralın 1-də Bakı Konqres Mərkəzində möhtərəm Prezidentimiz cənab İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirak etdiyi Azərbaycan Gəncləri Gününə həsr olunmuş toplantıya universitetimizin bir neçə tələbəsi ilə yanaşı mən də dəvət olunmuşdum. Möhtərəm Prezidentimiz öz çıxışında ölkədə görülən böyük quruculuq işlərindən, gənclərə göstərilən qayğıdan, yaradılan şəraitdən danışdı. Yeni iş yerlərinin açıldığını və açılacağını bildirdi. Hörmətli Prezidentimiz əslində biz gənclərin arzularının gerçəklənəcəyinə bir növ təminat verdi. Əmin olduq ki, universiteti bitirdikdən sonra ixtisasımıza uyğun işlə təmin olunacağıq.

Ulu öndərin yolunu layiqincə davam etdirən İlham Əliyev öz Vətənini, xalqını ürəkdən sevən, azərbaycançılıq amalını qəlbində yaşadan bir rəhbərdir. Azərbaycanda hamı onu özünə daha yaxın, daha doğma bilir. O, hamı ilə onun dili ilə danışır. Bir neçə gün əvvəl şəhid ailələri ilə görüşəndə ayağa qalxmaqda çətinlik çəkən valideynlərdən birinin yanına getdi, başqa birisinin hasasını qaldırdı. Biz gənclərlə görüşəndə isə salona düşüb əlil arabasında əyləşən bir gənci qucaqlayıb təbrik etdi.

Azərbaycanın bütün gəncləri kimi mən də bir daha əmin oldum ki, bu ölkədə hamıya qayğı göstərilir. Vətən uğrunda canından keçənlər də unudulmur, vətən yolunda əlil olanlar da. Hansısa bir təsadüf nəticəsində, lap elə anadangəlmə əlil olanlar da daim dövlət nəzarətində saxlanılır, dövlət qayğısı ilə əhatə olunurlar.

Universitetimizin tələbələri ilə bu mövzuda çox tez-tez söhbətlərimiz olur, Prezidentimizin çıxışlarından bizə yaxşı bəllidir ki, işğal olunmuş torpaqlarımızın azad olunması üçün ölkəmizin hər cür gücü, imkanı var. Azərbaycan hazırda Silahlı qüvvələri ən güclü olan dövlətlər sırasındadır. Ən yüksək səviyyəli hərbi silahlarımız və onları işlətmək üçün olduqca bacarıqlı və hazırlıqlı zabit və əsgərlərimiz var. Ordumuzun gücünə əmin olsaq da özümüzü Prezidentin bir çağırışı ilə hamılıqla, qızlar da, oğlanlar da silaha qurşanıb işğal olunmuş torpaqlarımızın azad olunması üçün cəbhəyə getməyə hazırlamışıq.

Universitetimizin Tələbə gəncləri respublikanın ictimai-siyasi həyatında da fəal iştirak edirlər. Universitetin rəhbərliyi tələbələrin təhsili ilə yanaşı ictimai işlərdəki fəaliyyətinə də xüsusi diqqət yetirir. Tanınmış elm xadimləri ilə, görkəmli şəxsiyyətlərlə, idmançılarla, orduda xidmət edən məzunlarımızla tələbələrin görüşləri təşkil olunur. Universitetlər arasında keçirilən yarışlarda fəal iştirak edirik.

Möhtərəm Prezidentimiz öz çıxışında elmin, təhsilin əhəmiyyətindən danışarkən biz gəncləri daha yaxşı təhsil almağa çağırdı. "Mən bütün gənclərə üz tutub deyirəm ki, təhsilə çox böyük fikir versinlər. Çünki bugünkü dünyada bilik, savad ön plandadır. Bu gün dünya o qədər sürətlə inkişaf edir, texnologiyalar o qədər sürətlə davam edir ki, bilik, savad olmadan həyatda öz layiqli yerini tutmaq çox çətindir"

Universitetimizdə gənclərin bilikli, savadlı olması, istənilən sahədə işləyə bilməsi üçün çox işlər görülüb və görülür. Tələbələrin seçib təhsil aldıqları ixtisasla yanaşı başqa peşələrə yiyələnmələri üçün xüsusi kurslar təşkil olunub. Xarici dil öyrənilməsi sahəsində çox böyük işlər görülür. Demək olar ki, universiteti bitirən gənclərin əksəriyyəti ixtisasına uyğun diplomla yanaşı hansısa bir xarici dildə də sərbəst yazıb oxumağı da bacarır, məhz elə bunun nəticəsidir ki, bu gün məzunlarımızın bir çoxu xarici şirkətlərdə, xarici ölkələrdə böyük hörmətlə işləyirlər.

Toplantıda torpaqlarımızın işğalçılardan azad olunması barədə çox danışıldı. Bu gün mənim də, universitetimizin tələbə və müəllimlərinin də, bütün Azərbaycan vətəndaşlarının da arzusu işğal olunmuş torpaqlarımızın tezliklə azad olunması, bayrağımızın Şuşada, Xankəndidə, Kəlbəcərdə, Laçında dalğalandığını görməkdir. İnanıram ki, tezliklə bu arzumuza da çatacağıq. Çünki bizim İlham Əliyev kimi cəsarətli, uzaqgörən Prezidentimiz var. Onun tövsiyələri bizim arzularımızdır. Biz gənclər hamılıqla ölkəmizi uğurlu gələcəyə aparan İlham Əliyev siyasətini dəstəkləyirik.

Bir tələbə kimi bu cür mötəbər tədbirdə iştirak etmək məni çox sevindirdi. Ölkədə tanınmış bir universitetin tələbə gəncləri və bütün kollektivi adından cənab Prezidentin çıxışında biz gənclərin qarşısına qoyduğu bütün fikirlərə əməl edəcəyimizə söz veririk.

**Röya HACIYEVA,**
**"Təfəkkür" universitetinin Tələbə Gənclər Təşkilatının sədri.**

# BMU-nun əməkdaşları "Sumqayıt Kimya Sənaye Parkı"nda





Tərəflər arasında imzalanmış "Əməkdaşlıq Memorandumu"na əsasən Bakı Mühəndislik Universitetinin nümayəndə heyəti ilə "Sumqayıt Kimya Sənaye Parkı" MMC-də növbəti görüş keçirilib.

Qonaqları səmimi qarşılayan İqtisadiyyat Nazirliyinin tabeliyində fəaliyyət göstərən "Sumqayıt Kimya Sənaye Parkı" MMC-nin direktoru Nazim Talıbov ölkə başçısı İlham Əliyevin təşəbbüsü ilə yaradılan sənaye parklarının bugünü və gələcək hədəfləri haqqında ətraflı məlumat verib. Bildirib ki, sənaye parkının ərazisində prioritet sənaye sahələri üzrə rəqabətədavamlı məhsullar istehsal edən müəssisələr fəaliyyət göstərir. İstehsal olunan məhsullar daxili bazarın tələbatını ödəməklə yanaşı, xarici bazarlara da ixrac olunur. Nazim Talıbov qeyd edib ki, ölkəmizdə ilk dəfə şüşə istehsalı müəssisəsi də "Sumqayıt Kimya Sənaye Parkı"nın ərazisində inşa olunur. O, tərəflər arasında əlaqələrin təşkili formaları, tələbələrin təcrübə keçmələri kimi görülməli olan digər məsələlərlə də bağlı danışıb və bu sahədə dünya təcrübəsindən nümunələr gətirib.

**Bakı Mühəndislik Universitetinin rektoru, professor Havar Məmmədov** cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə hər sahədə sürətli inkişafın olduğunu vurğulayıb. Son illərdə fəaliyyətə başlayan müasir texnologiyalı sənaye müəssisələrinin tam gücü ilə işləməsi üçün müasir bilikli kadr potensialının da hazırlanmasına ehtiyacın olduğunu diqqətə çatdıran rektor, BMU-nun sənaye müəssisələri, xüsusilə sənaye parkları ilə əməkdaşlıqda maraqlı olduğunu bildirib. Qeyd edib ki, BMU-da sənaye müəssisələri üçün mühəndislik və iqtisadiyyat ixtisasları üzrə müasir nəzəri bilikli, qabaqcıl müəssisələrdə təcrübə keçən və müsbət vətəndaş xüsusiyyətlərinə malik kadr hazırlığı həyata keçirilir və universitetin gələcəkdə sahibkarlıq universitetinə çevrilməsi yönündə mühüm işlər görülür.

Görüşdə İqtisadiyyat Nazirliyinin Sənaye şöbəsinin müdir müavini Fikrət Qurbanov, BMU-nun prorektorları Həmzağa Orucov, Bayram Hüseynzadə, Manafəddin Namazov, İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutunun direktor müavini Arzu Hüseynova universitet-sənaye əlaqələrinin inkişafının ölkə iqtisadiyyatına verəcəyi töhfələrdən danışıblar. Qeyd ediblər ki, Bakı Mühəndislik Universitetinin gənc olmasına baxmayaraq innovativ texnologiyalı laboratoriyaları və müasir bilikli akademik heyəti sənaye müəssisələri ilə əməkdaşlıq sayəsində tələb olunan səviyyədə kadr hazırlığını həyata keçirə bilər.

Tədbirin sonunda iştirakçılar "Sumqayıt Kimya Sənaye Parkı" MMC-nin ərazisində yerləşən müəssisələr və istehsal prosesi ilə tanış olublar.

**M.MİRZƏ,**
**"Respublika".**

# "UNEC-100" İnkişaf Strategiyası - Tədqiqat Universiteti




"UNEC-100" İnkişaf Strategiyasında Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) tədqiqat universitetinə transformasiyası ilə bağlı strateji məqsəd, hədəflər və fəaliyyət istiqamətləri müəyyən olunub.

Strategiyaya əsasən, tədqiqat universitetinə çevrilmək istiqamətində UNEC magistratura və doktorantura təhsilini mütərəqqi dünya təcrübəsinə uyğunlaşdırmağı, milli və beynəlxalq səviyyədə yüksək reytinq qazanmış "beyin mərkəzi" yaratmağı, sifariş və qrantlar əsasında yerinə yetirilən tədqiqat layihələrinin sayını ilbəil artıraraq universitetin büdcəsinin 20%-nə çatdırmağı əsas hədəfə çevirib.

Bununla yanaşı, UNEC-də 2030-cu ilə qədər "Web of Science" və "Scopus" elmi platformalarına daxil olan ən nüfuzlu nəşrlərdə çap edilən məqalələrin sayını ilbəil artırmaq, həmin bazalara daxil olan 3 elmi jurnala sahib olmaq, elmi məruzələri nüfuzlu bazalara daxil edilən beynəlxalq elmi tədbirlər təsis və təşkil etmək, o cümlədən hər il iqtisadçı tələbələrin beynəlxalq tələbə elmi konfransını təşkil etmək İnkişaf Strategiyasında hədəf kimi müəyyən olunub.

Hazırda isə UNEC-də konkret və spesifik tədqiqat istiqamətləri üzrə 17 tədqiqat-araşdırma mərkəzi, İqtisadi Klinika, Sığorta məktəbi və İnkişaf iqtisadiyyatı laboratoriyası fəaliyyət göstərir. Elmi tədqiqatların stimullaşdırılması məqsədilə isə UNEC Tədqiqat Fondu, Differensial Əmək Haqqı Sistemi və nüfuzlu jurnallarda məqalə nəşrinə görə mükafatlandırma mexanizmi mövcuddur. UNEC-də ali təhsilin magistratura və doktorantura təhsil pilləsi üzrə beynəlxalq standartlara cavab verən müasir tədris və təlim metodlarının tətbiq olunduğu, "İqtisadiyyat və idarəetmə" ixtisas qrupuna daxil olan 11 ixtisas və 39 ixtisaslaşma üzrə 4 dildə tədris aparan Beynəlxalq Magistratura və Doktorantura Mərkəzi də fəaliyyət göstərir. ■

# İşə qəbulla bağlı qeydiyyat başa çatıb

Bakı Şəhəri üzrə Təhsil İdarəsi (BŞTİ) tərəfindən ümumi təhsil müəssisələrində təlim-tərbiyə işləri üzrə direktor müavini, tərbiyə işləri üzrə direktor müavini (təşkilatçı), gənclərin çağırışaqədərki hazırlığı üzrə rəhbər, psixoloq, uşaq birliyi təşkilatı rəhbəri, kitabxana müdiri (kitabxanaçı) və laborant vəzifələrinə işə qəbul üzrə qeydiyyat başa çatıb.

Qeyd edilən vəzifələr üzrə işə qəbul olmaq istəyən 2 923 şəxsin müraciəti http://musabiqe.baku.edu.az portalı vasitəsilə qeydə alınıb.

Müvafiq qaydada qeydiyyatdan keçmiş şəxslər elektron ərizədəki məlumatlarının uyğunluğu yoxlanıldıqdan sonra müsabiqənin növbəti (test imtahanı) mərhələsinə dəvət ediləcək.

Təhsil nazirinin müvafiq əmri ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Təhsil Nazirliyi sisteminə daxil olan ümumi təhsil müəssisələrində və peşə liseylərində müəllimlərə tələbatın müəyyənləşdirilməsi, pedaqoji kadrların işə qəbulu və yerdəyişməsi Qaydaları"na əsasən, müvafiq kadrların işə qəbulu və yerdəyişməsi tabelik üzrə təhsili idarəetmə orqanının müəyyən etdiyi qaydada həyata keçirilir.

**Əli SADIQOV,**
**"Respublika".**

TƏKRAR

Kənd Təsərrüfatı Nazirliyi
Açıq Tenderə dəvət edir
Tender 12 lot üzrə keçirilir:

Lot 1 - Aqrar yönümlü Peşə təhsili məktəbinin layihələndirilməsi

Lot 2 - Fillokseraya davamlı calaq-üzüm əkin materialının istehsalı üçün calaq kompleksinin layihələndirilməsi

Lot 3 - İri və xırdabuynuzlu heyvanların seleksiya damazlıq işlərinin aparılması üçün heyvandarlıq kompleksinin layihələndirilməsi

Lot 4 - Əkinçilik Elmi-Tədqiqat İnstitutunun Cəlilabad Bölgə Təcrübə Stansiyasında Toxum emalı sexinin tikintisinin, inzibati və yardımçı binaların əsası təmirinin layihələndirilməsi

Lot 5 - Əkinçilik Elmi-Tədqiqat İnstitutunun Tərtər Bölgə Təcrübə Stansiyasında inzibati və yardımçı binaların əsaslı təmirlərinin və toxum emalı sexinin tikintisinin layihələndirilməsi

Lot 6 - Bitki Mühafizə və Texniki Bitkilər Elmi-Tədqiqat İnstitutunun Samux rayonundakı Texniki Bitkilər Şöbəsinin inzibati və laboratoriya binasının əsaslı təmirinin layihələndirilməsi

Lot 7 - Salyan Regional Aqrar Elm və İnnovasiya Mərkəzinin inzibati idarə binasının təmirinin və mini pambıq emalı sexi, istixana binalarının və yardımçı binaların tikintilərinin layihələndirilməsi

Lot 8 - Gəncə RAEİM-in inzibati binasının, Pambıq elit toxum emalı sexi və laboratoriya binasının layihələndirilməsi

Lot 9 - ADAU-nun əczaçılıq və morfologiya fakültəsinin binasının əsaslı təmirinin layihələndirilməsi

Lot 10 - ADAU-nun mühəndis fakültəsinin Emalatxana binasının əsaslı təmirin layihələndirilməsi

Lot 11 - Sabirabad rayonlararası Bioloji laboratoriyasının əsaslı təmirinin layihələndirməsi

Lot 12 - Baytarlıq Elmi-Tədqiqat İnstitutunun yardımçı binalarının, Baytarlıq Klinikasının və abadlıq işlərinin layihələndirilməsi

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri Üzeyir Hacıbəyli küçəsi 80, 7-ci mərtəbə, 777-ci otaq (Əlaqələndirici şəxs: Kamil Şirinov, telefon: 498-02-57) ünvanından ala bilərlər.

İştirak haqqı:
Lot 1 - 100 manat
Lot 2 - 100 manat
Lot 3 - 100 manat
Lot 4 - 100 manat
Lot 5 - 100 manat
Lot 6 - 100 manat
Lot 7 - 100 manat
Lot 8 - 100 manat
Lot 9 - 100 manat
Lot 10 - 100 manat
Lot 11 - 100 manat
Lot 12 - 100 manat

Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi
Hesab:
AZ94CTRE00000000000002188301
VÖEN: 1700069791
Bank: Dövlət Xəzinədarlıq Agentliyi
Kodu: 210005
VÖEN: 1401555071
M/H: AZ41NABZ01360100000000003944
S.W.İ.F.T: CTREAZ22

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. Tenderdə iştirak etmək üçün yazılı müraciət;
2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;
3. Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);
4. Tender təklifi dəyərinin 1 %-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən ən azı 60 bank günü qüvvədə olmalıdır);
5. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqandan arayış;
6. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;
7. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;
8. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;
9. Digər sənədlər: Lisenziyanın surəti.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 2019-03-04 saat 17:00 tarixinə qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 2019-03-18 saat 17:00 qədər Üzeyir Hacıbəyli küçəsi 80, 7-ci mərtəbə, 777-ci otaq ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 2019-03-19 saat 17:00 tarixində Kənd Təsərrüfatı Nazirliyində, Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi 80, 7-ci mərtəbə, 722-ci otaqda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

TENDER KOMİSSİYASI.

# Azərbaycanda orta əməkhaqqı səviyyəsi 10 faizədək yüksələcək

Prezident İlham Əliyevin apardığı uğurlu iqtisadi islahatlar nəticəsində ötən il Azərbaycan iqtisadiyyatı 1,4 faiz artdığı halda 2019-cu ildə bu rəqəmin 3 faizdən çox olması proqnozlaşdırılır. Azərbaycan iqtisadiyyatının uğurlu inkişafı və artım miqyaslarının genişləndirilməsi ölkədə rifah halının yaxşılaşdırılması və layiqli həyat səviyyəsinin yüksəldilməsinə əlavə imkanlar yaradır. Ölkə başçısının son 15 ildə sosial rifah halının yaxşılaşdırılması ilə bağlı apardığı siyasət nəticəsində orta aylıq əməkhaqqı 7, minimum əməkhaqqı isə 6,5 dəfə artıb. Təsadüfi deyil ki, bu ildən başlayaraq Azərbaycanda pensiyaların, maaşların, müavinətlərin artırılması istiqamətində müvafiq addımlar atılıb, şəhid ailələrinə verilən kompensasiyaların, o cümlədən özünüməşğulluq proqramının əhatə dairəsi genişləndirilib. Eyni zamanda, zəlzələ bölgəsində əhaliyə kompensasiya verilməsi istiqamətində müvafiq addımlar atılıb. Həyata keçirilən sosial tədbirlər iqtisadi imkanların genişləndirilməsi və böyük sosial layihələrin icrasının göstəricisidir.

Prezident İlham Əliyevin bu siyasətinin nəticəsi olaraq martın 1-dən etibarən minimum aylıq əməkhaqqı 38,5 faiz artırılaraq 130 manatdan 180 manata çatdırılıb. Minimum əməkhaqqı yaşayış minimumu səviyyəsinə, yəni 180 manata bərabər olub. Minimum əməkhaqqı ehtiyac meyarından, yəni 143 manatdan 25 faiz daha yüksək həddə qərarlaşıb.

AZƏRTAC xəbər verir ki, bu sözləri İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı fevralın 9-da keçirilən mətbuat konfransında deyib.

O, həmçinin bildirib: "Minimum əməkhaqqının artırılması 600 minədək insanı əhatə edəcək. Onlardan 450 min nəfəri dövlət sektorunda çalışan insanlardır. Vahid tarif cədvəli əsasında əməkhaqqı müəyyənləşib. Cədvəlin ilkin pilləsində ehtiyac meyarına uyğun olaraq əməkhaqqı 143 manat idisə, indiki halda bu 180 manat olacaq və birinci pillədən sonrakı pillələrə doğru artımlar müşahidə ediləcək. Dövlət sektorunda 450 min nəfərin əməkhaqları təxminən 30 faiz, özəl sektor üzrə 150 minə yaxın işçinin əməkhaqları 20 faizədək artacaq. Ümumilikdə, ölkə üzrə orta əməkhaqqı səviyyəsi 10 faizədək yüksələcək. Minimum əməkhaqqı daha çox aztəminatlı təbəqələr üzrə artacaq. Bu da Azərbaycanda yoxsulluq həddi və sosial bərabərsizlik indeksini daha da azaldacaq. Həmçinin qadınların orta aylıq əməkhaqqı kişilərin orta aylıq əməkhaqqına yaxınlaşacaq".

İcraçı direktor qeyd edib ki, minimum əməkhaqqının artması üçün dövlət büdcəsindən minimum 335 milyon manata yaxın vəsaitin xərclənməsi gözlənilir: "Növbəti illər üçün dövlət büdcəsindən bununla bağlı 400 milyon manat vəsaitin xərclənməsi nəzərdə tutulub. Onlardan 270 milyon manatı dövlət sektorunda çalışan əhalinin əməkhaqqının artırılmasına yönələcək. 130 milyon manatı isə vergi və sığortaların təmin edilməsinə istiqamətlənəcək. Hər iki sektorda əməkhaqqının artırılması əhalinin sosial rifah halının yüksəldilməsi və layiqli əməyin təbliğinə töhfə verəcək. Bu artım iqtisadiyyatın leqallaşmasına da əhəmiyyətli dərəcədə təsir göstərəcək. Orta aylıq əməkhaqqının artırılması əməkhaqqının ümumi daxili məhsulda xüsusi çəkisinin artmasına istiqamətlənib və xüsusi çəki il ərzində 500 milyon manatadək artacaq. Ölkədə bu il ümumi daxili məhsulun 3 faizdən çox artması gözlənilir".

**AZƏRTAC**

## Ötən ilin yekunları

# Sumqayıt: yüksək iqtisadi və sosial göstəricilər






**Sumqayıtda 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş hesabat yığıncağı keçirilmişdir.**

Hesabat yığıncağında Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov , Prezident Administrasiyasının məsul işçisi Vəfadar Bağırov, millət vəkilləri, idarə, müəssisə və təşkilat rəhbərləri, eləcə də şəhər ictimaiyyətinin nümayəndələri iştirak etmişlər.

Hesabat yığıncağında Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcovun ötən ilin yekunlarına dair hesabat məruzəsi dinlənildi. Diqqətə çatdırıldı ki, ölkədə həyata keçirilən uğurlu iqtisadi siyasətin məntiqi nəticəsi olaraq Sumqayıt şəhərinin sosial iqtisadi inkişafında əhəmiyyətli irəliləyişlər əldə edilmişdir.

2018-ci ildə ümumdaxili məhsul istehsalı 2017-ci illə müqayisədə 35 faiz və ya 520 milyon manat artaraq 2 milyard manatdan çox olmuşdur.

Sənaye müəssisələrində 1 milyard 300 milyon manatlıq məhsul istehsal edilmişdir ki, bu da əvvəlki dövrlə müqayisədə 20 faiz artım deməkdir. İl ərzində hamısı daimi olmaqla 7000 yeni iş yeri yaradılmış, muzdla işləyən işçilərin orta aylıq əmək haqqı 500 manat həddini ötmüşdür.

Hesabat dövründə irimiqyaslı investisiya layihələrinin icra edilməsi, bir neçə iri sənaye müəssisəsinin fəaliyyətə başlaması bu göstəricilərin cari ildə daha da artacağını deməyə əsas verir. Ötən ilin iyul ayında dövlət başçısı ölkənin ən böyük sənaye parkı olan Sumqayıt Kimya Sənaye Parkında SOCAR-Polimer MMC-nin Polipropilen istehsalı zavodunun açılışında iştirak etmiş, layihəni çox əlamətdar hadisə adlandırmışdır. Kanada və Avstriya texnologiyası əsasında ildə 180,0 min ton məhsul istehsalı edəcək zavod 450 nəfər işçi ilə təmin edilmişdir.

Cənab Prezidentin Sumqayıta noyabr ayında növbəti səfəri zamanı Kimya Sənaye Parkında İsveçrə və Türkiyə texnologiyaları əsasında 3,5 milyon dollar dəyərində 100 faizli xarici investisiya hesabına inşa edilmiş ilkin mərhələdə 40 min ton tikinti qatqıları istehsal edəcək İnşaat Kimyəviləri zavodunun, İtaliya texnologiyası əsasında ildə 50 min ton ferrosilisium və 72 min ton ferrosilikomanqan istehsal ediləcək, investisiya dəyəri 51 milyon dollar olan Əlvan Metallar və Ferroərintilər zavodunun və Böyük Britaniya, Almaniya, İtaliya texnologiyaları əsasında qurulan, ildə 11 milyard ədəd siqaret istehsal edəcək "Tabaterra" tütün məmulatları fabrikinin açılışlarında iştirak etmişdir. Bu müəssisələrdə 500 yeni iş yeri yaradılmışdır.

Qeyd edilməlidir ki, Sumqayıt Kimya Sənaye Parkı ərazisində inşa olunmuş "SOCAR Karbamid" zavodunun bu il yanvarın 16-da ölkə rəhbərinin iştirakı ilə açılışı olmuşdur. Zavodda 500 nəfər daimi işlə təmin ediləcəkdir. Bu Sumqayıtın Müstəqillik tarixində ən böyük layihədir.

Bunlar bir daha sübut edir ki, Azərbaycan Respublikası Prezidentinin müəyyənləşdirdiyi kursa uyğun olaraq reallaşdırılan sənayeləşmə siyasəti uğurla davam edir. Qeyri-neft sektorunun mühüm tərkib hissəsi olan sənayenin inkişafı, bu sahədə yeni istiqamətlərin müəyyənləşdirilməsi şübhəsiz ki, iqtisadiyyatın inkişafına mühüm töhfələr verir. Belə layihələrin icrası ilk növbədə yeni iş yerlərinin açılmasına, əhalinin məşğulluğunun artırılmasına səbəb olur. Eyni zamanda idxaldan asılılığı azaltmaqla, ixracyönümlü məhsulların həcminin artırılmasına böyük təsir göstərir.

Sumqayıt Kimya Sənaye Parkında mövcud 18 rezidenti üzrə layihələrin investisiya dəyəri 3,5 milyard ABŞ dolları təşkil edir. Bunlardan 3 milyard dolları artıq layihələrə yatırılıb. Fəaliyyətdə olan müəssisələrin sayı 11-ə çatmışdır. İstehsalat və tikinti-quraşdırma işlərində 3 mindən çox işçi çalışır.

Qeyd etmək lazımdır ki, Regionların Sosial İqtisadi İnkişafının Dövlət Proqramının icrası dövründə, yeni son 5 ildə şəhərdə ümumdaxili məhsul istehsalı 2,6; sənaye məhsulu istehsalı 2,9; investisiya qoyuluşu 3,5 dəfə artmış, 32819 yeni iş yeri yaradılmışdır. 2955 yeni istehsal sahəsi fəaliyyətə başlamışdır.

Yol infrastrukturunun yaxşılaşdırılması, dəmiryol nəqliyyatının normal hərəkətinin təmin edilməsi və sərnişinlər üçün lazımi şəraitin yaradılması məqsədilə Sumqayıt şəhərində Dəmiryol Vağzalının binası yenidən inşa edilmişdir. Ölkə rəhbəri noyabr ayında Sumqayıta səfəri zamanı yeni inşa edilmiş Vağzal binasının açılışında iştirak etmiş və sərnişinlər üçün yaradılmış şəraitlə tanış olmuşdur.

Bütün maliyyə mənbələri hesabına əsas kapitala yönəldilmiş investisiyanın məbləği 456 milyon manat olmuşdur. Bu da əvvəlki ilin göstəricisinə nisbətən 2,5 dəfə və ya 276 milyon manat artım deməkdir.

Ötən dövr ərzində ticarət dövriyyəsi 912 milyon manat olmuş, əvvəlki dövrlə müqayisədə 9 faiz artmışdır.

İqtisadi göstəricilərin artması nəticəsində yerli büdcə gəlirlərinin proqnozu 112,3 faiz, xərc isə 100 faiz icra olunmuşdur.

Şəhər İcra Hakimiyyətinin dəstəyi ilə Məşğulluq Mərkəzi əhalinin işlə təmin olunması sahəsində müvafiq tədbirlər həyata keçirmişdir. Mərkəzə müraciət edənlərin sayı ötən illə müqayisədə xeyli azalmış, 4952 nəfər işaxtaran kimi qeydiyyata alınmış, onlardan 2520 nəfər işlə təmin olunmuşdur. Mövsümi işlərə 1590 nəfər cəlb edilmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın iştirakı ilə şəhərdə müvəqqəti məskunlaşmış məcburi köçkünlərin mənzillə təmin olunması üçün 12-ci mikrorayon ərazisində 1005, Stansiya Sumqayıt yaxınlığında 1000 mənzildən ibarət yeni yaşayış kompleksinin açılışı olmuşdur.

Hesabat ilində şəhər Prokurorluğunun yeni inzibati binasının tikintisi başa çatdırılmış, "Nizami" kino-teatrının sökülərək yenidən layihələndirilməsinə və Corat qəsəbəsində yeni 120 yerlik uşaq bağçasının tikintisinə başlanılmışdır. Məhkəmə kompleksində işlər davam etdirilmişdir. Metallurq küçəsində kompleks yenidənqurma işləri aparılmış, həmin küçədə Acı Dərə kanalının məcrasının dəyişdirilməsi ilə əlaqədar 1800 p/m yeni suötrücü kanalizasiya xətti çəkilmişdir. Şəhərdə 16 küçə və yolda, 10 mikrorayon və 8 məhəllədaxili ərazilərdə ümumilikdə 555,0 min kv. metr asfalt örtüyü, 14200,0 p/m beton, 748,0 p/m qranit bardür dəyişdirilmişdir.

Ötən dövrdə 100 yaşayış binasının dam örtüyü metal kirəmitlə əvəz edilmiş və 68 yaşayış binasında işlər davam etdirilir. ümumilikdə son illərdə 650-dən çox yaşayış binasının dam örtüyü əsaslı təmir olunmuşdur.

Nəriman Nərimanov, Azərbaycan küçələrinin 1, 18 və 19-cu məhəllələrində 6 yaşayış binasının fasadı aqlay daşı ilə üzlənmiş, 2 binada isə işlər aparılır. Keçirilən yaşıllaşdırma aylıqlarında 100 mindən çox ağac, dekorativ kol, 200 minə yaxın mövsümi və 250 mindən çox dekorativ güllər əkilmişdir.

Əhalinin su ilə təminatı sahəsində də müəyyən işlər görülmüşdür. Belə ki, 200 binanın zirzəmisində 1800 p/m su xətti dəyişdirilmiş və təmir olunmuşdur. Məhəlləda xili su şəbəkələrində 2100 p/m yeni su xətti çəkilmiş, 5400 p/m su xətti təmir edilmişdir.

Mövsüm ərzində əhalinin istiliklə təminatı və xidmətin keyfiyyətini artırmaq məqsədi ilə 8 qazanxanada, həmçinin 102 binanın aşağı paylama sistemində təmir bərpa işləri aparılmış,18-ci mikrorayonda 24 yaşayış binasında 1110 mənzili istiliklə təmin edən yeni qazanxana istifadəyə verilmişdir.

Mövsüm ərzində fəaliyyətdə olan 24 qazanxana vasitəsilə 263 yaşayış binası, 30 orta məktəb, 17 səhiyyə və 21 digər obyektlər fasiləsiz olaraq istiliklə təmin olunur.

Hesabat dövründə lift təsərrüfatının maddi texniki bazasının möhkəmləndirilməsi məqsədilə, əhalinin liftdən təhlükəsiz istifadə etməsinin təmin olunması məqsədilə istismar müddətini ötmüş 105 lift yenisi ilə əvəz olunmuşdur. ümumilikdə son illər 367 lift yenisi ilə əvəz olunmuşdur.

Ölkə rəhbərinin yaxından köməyi sayəsində əhaliyə göstərilən nəqliyyat xidmətinin yaxşılaşdırılması məqsədi ilə xırda tutumlu, istismara yararsız, ekoloji tələblərə cavab verməyən nəqliyyat vasitələri xətlərdən çıxarılmış, sərnişinlərin rahatlığı üçün Türkiyə istehsalı olan 206 ədəd sərnişin avtobusu gətirilərək marşrut xətlərinə buraxılmış, müasir tipli yeni dayanacaqların quraşdırılması işləri davam etdirilmişdir.

Sumqayıt şəhərində təhsilə dövlət tərəfindən xüsusi diqqət və qayğı göstərilir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin imzaladığı Sərəncama əsasən Sumqayıt şəhərində 1176 şagird yerlik yeni məktəb binasının tikintisi şəhərin təhsilinə ən böyük töhfədir.

Qəbul imtahanlarında iştirak etmiş məzunların 77,1 faizi tələbə adını qazanmışdır ki, bu da ötən illə müqayisədə 8 faiz yüksəkdir. Məzunların 211 nəfəri 600-dən yuxarı, 2 nəfər 700 bal toplamış, 7 nəfəri "Prezident təqaüdünə" layiq görülmüşdür.

Şəhər rəhbərliyinin diqqət və qayğısı ilə məktəbəqədər təlim-tərbiyə müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi məqsədi ilə xeyli iş görülmüş, avadanlıq və inventarlarla təchizat yaxşılaşdırılmış, istilik sistemi tam bərpa olunmuş, bütün uşaq bağçaları isti su ilə təchiz edilmiş, ərzaq təminatı ciddi nəzarətə götürülmüşdür.

İl ərzində tibb müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi, şöbə və struktur bölmələrin təchizatının yaxşılaşdırılması istiqamətində şəhər əhalisinə göstərilən tibbi xidmətin keyfiyyətinin artırılması sahəsində müvafiq tədbirlər həyata keçirilmişdir. Yeni avadanlıqlar alınmış, dərman vasitələrinin mərkəzləşdirilmiş qaydada təchizatı yaxşılaşdırılmışdır.

4 nömrəli şəhər poliklinikası və 3 nömrəli şəhər xəstəxanasının poliklinika şöbəsi əsaslı, Təcili Tibbi Yardım Stansiyası, 4 nömrəli şəhər xəstəxanası,1 nömrəli uşaq poliklinikası, uşaq stamatoloji poliklinikası və səhiyyə şöbəsinin inzibati binasında cari təmir işləri aparılmışdır. Bu ilin yanvar ayında 2 nömrəli şəhər xəstəxanası əsaslı təmirə bağlanmış, hazırda xəstəxananın şöbələri digər tibb müəssisələrinə köçürülür.

Azərbaycan Respublikası Prezidentinin tapşırığına əsasən Sumqayıt şəhərində ötən ilin fevralın 15-dən mayın 15-dək 234 min şəhər sakini tibbi müayinədən keçmişdir.

Mədəniyyət sahəsində ötən ilin ən yaddaqalan hadisələrindən biri Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamına əsasən Sumqayıt Dövlət Dram Teatrının 50 illik yubileyinin təntənəli şəkildə qeyd edilməsi olmuşdur. Bu münasibətlə dövlət başçısının sərəncamları ilə teatr sənətinin inkişafında xidmətlərinə görə bir qrup şəxs "Əməkdar artist" fəxri adına layiq görülmüş və "Tərəqqi" medalı ilə təltif edilmişdir.

İdman obyektlərinin maddi-texniki bazasının yaxşılaşdırılması istiqamətində görülmüş işlər idmançıları yarışlara daha həvəslə hazırlaşmağa sövq etmişdir. İl ərzində şəhər idmnçılrı respublika və bynəllq səviyyəli yrışlrdn 326 qızıl, 234 gümüş, 367 bürünc mdl olmaqla, ümumilikdə 927 mdl əldə tmişlər.

Daha sonra məruzə ətrafında geniş fikir mübadiləsi aparıldı, çıxışlar dinlənildi. Çıxışlarda 2018-ci ildə görülən işlər təhlil edilib, uğurlarla yanaşı, problemlər də sadalanıb, onların həlli ilə bağlı təkliflər irəli sürülüb.

Sonda yığıncaq iştirakçıları adından Prezident İlham Əliyevə müraciət ünvanlandı.

**Söhrab SƏFİYEV,**
**"Respublika".**

# İmişli: sosial-iqtisadi uğurlar





**İmişlidə 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclas keçirildi. Tədbirdə rayonun idarə, müəssisə, təhsil təşkilatları, kənd icra nümayəndələri, hüquq-mühafizə orqanları və ictimaiyyət nümayəndələri iştirak ediblər. Tədbir iştirakçıları ilk öncə xalqımızın ümummilli lideri Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoydular.**

Heydər Əliyev Mərkəzində keçirilmiş yığıncağı rayon icra hakimiyyətinin başçısı Vilyam Hacıyev açaraq toplantı iştirakçılarını salamlamış, 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran məsələlər barədə məruzə ilə çıxış edərək vurğulamışdır ki, 2018-ci il ərzində İmişli rayonunun sosial-iqtisadi inkişafında da yaxşı nəticələr əldə olunmuşdur. Belə ki, bu il Prezident seçkiləri və cənab Prezidentimizin rayonumuza səfəri ilə xüsusilə yadda qalmışdır. Seçkilərə hazırlıq və seçkilərin keçirilməsində rayon əhalisi xüsusi fəallıq göstərmiş və rayonumuz Prezident seçkilərinin nəticələrinə görə respublikamızda öncül yerlərdən birini tutmuşdur. Ölkə Prezidentinin rayonumuza səfəri xüsusilə qeyd edilməlidir. Bu, ölkə rəhbərinin rayonumuza göstərdiyi diqqətin bariz nümunəsi kimi qiymətləndirilmişdir. Bildiyiniz kimi, cənab Prezident bir sıra yeni mühüm obyektlərin açılışını etmiş, rayon əhalisinin fəalları ilə görüşmüş və gələcək inkişafımız üçün öz dəyərli məsləhətlərini vermişdir. Bu məsləhətlər bizim bugünkü və bundan sonrakı inkişafımızın bir proqramıdır.

2018-ci ildə İmişli rayonunun sosial-iqtisadi inkişafında da yaxşı nəticələr əldə olunmuşdur. Belə ki, iqtisadiyyatın əsas sahələri üzrə ilkin hesablamalara görə, 470.858.100 manatlıq məhsul istehsal edilmiş və ya xidmət göstərilmişdir.

Kənd təsərrüfatı məhsullarının istehsalından danışan rayon rəhbəri qeyd etdi ki, İmişli rayonunun iqtisadiyyatında kənd təsərrüfatı məhsullarının istehsalı da xüsusi yer tutur. Ölkədə aparılan aqrar islahatların uğurla həyata keçirilməsi nəticəsində rayonumuzda kənd təsərrüfatı inkişaf etmişdir. Son illərdə olduğu kimi, pambıq, taxıl, çuğundur əsas bitkiçilik sahəsi kimi qalmaqdadır.

Baramaçılıq da rayonumuzda uğurla inkişaf etdirilir. Cari ildə rayon ərazisində 134 kümçüyə ipəkqurdu paylanaraq, 10.087 kq yaş barama istehsal edilmişdir ki, bu da ötən illə müqayisədə 25.6 faiz çox olmuşdur.

2018-ci ildə heyvandarlıq və quşçuluq sahələrinin inkişafı təmin edilmiş, rayon üzrə mal-qaranın sayı 95.062 başa, qoyunların sayı 254.979 başa çatdırılmış, quşların sayı isə 1.181.169 baş olmuşdur. Ət istehsalı (diri çəkidə) 7345 ton, süd istehsalı 49632,8 ton, yumurta istehsalı isə 40.625 min ədəd olmuşdur. 2018-ci ilin müvafiq dövrü ərzində 49747.3 ton buğda, 18624 ton arpa, 2614.2 ton kartof, 4140.6 ton bostan, 3305.9 ton şəkər çuğunduru, 2882.1 ton tərəvəz tədarük edilmişdir. 01 yanvar 2019-cu il tarixə sahələrdən 18.575 ton pambıq yığılmışdır. Bundan əlavə, 2018-ci ilin payız aylarında 13324 ha buğda, 5760 ha torpaq sahəsində arpa əkilmişdir.

Azərbaycan Respublikasında "Kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"nə uyğun olaraq İmişli rayonunun inzibati ərazisində yerləşən qış otlaq sahələrindən 10211 hektar torpaq Nazirlər Kabinetinin Qərarı ilə təyinatı dəyişdirilərək əkin dövriyyəsinə cəlb edilmişdir. 6 min ha qış otlaq sahəsinin isə təyinatının əkinə dəyişdirilməsi üçün aidiyyəti nazirliklərlə yazışma aparılır.

Rayonda aparılan abadlıq və quruculuq işlərindən danışan Vilyam Hacıyev bildirdi ki, İmişli şəhəri Heydər Əliyev prospektində və parkında, 20 Yanvar, N.Savalanov, X.Bəylərov, S.Fətəliyev, A.Şadlinski küçələrində müvafiq abadlıq işləri aparılmışdır.

Cənab Prezident İlham Əliyevin İmişli rayonuna səfəri zamanı "ASAN Həyat" kompleksinin və "Bayraq Muzeyi"nin açılışı olmuşdur. Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə 2018-ci ildə rayonun Muradxanlı kəndində 56 yerlik modul tipli orta məktəb binasının, Aranlı 2 saylı tam orta məktəbi üçün 132 yerlik binanın və Qızılkənd kənd tam orta məktəb binasının tikintisinə başlanılmış, Xəlfəli tam orta məktəbində isə cari təmir işləri aparılmışdır.

Qarabağ müharibəsi əlilləri və şəhid ailələrinin mənzil şəraitinin yaxşılaşdırılması məqsədilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən İmişli şəhərində 6 mərtəbəli 54 mənzilli ictimai yaşayış binasında tikinti işləri başa çatdırılaraq, növbəlik əsasında Qarabağ müharibəsi əlillərinə və şəhid ailələrinə paylanılmışdır.

Əhalinin elektrik enerjisi, qaz və içməli su ilə təminatından danışan icra başçısı qeyd etdi ki, 2018-ci il ərzində istehlakçıların fasiləsiz və etibarlı elektrik enerjisi təchizatının yaxşılaşdırılması məqsədi ilə 10 və 0,4 kv-luq xətlərdə yenidənqurma işləri aparılmış, mövcud istismar müddətini başa vurmuş dayaq və naqillər yenisi ilə əvəz edilmiş, yeni güc mərkəzləri yaradılmışdır. Bu müddətdə 370 ədəd müxtəlif güclü 10/0,4 kv-luq transformator cari, 250 ədəd trasformator yarımstansiyası əsaslı təmir edilərək əhalinin istifadəsinə verilmişdir.

Regional Qaz İstismarı İdarəsinin İmişli Xidmət sahəsi tərəfindən rayonda 2018-ci il ərzində 218 yeni fərdi ev, 15 qeyri-əhali sektorunu təmsil edən obyekt qazlaşdırılaraq istismara təhvil verilmişdir. Beləliklə, 2018-ci ildə təbii qaz istehlakçıların ümumi sayı: əhali sektoru üzrə 24958 nəfər təşkil etmişdir ki, onlardan 4746 nəfərinə yeni Smart tipli məişət qaz sayğacı quraşdırılmışdır.

Kəndlərin su təchizatını yaxşılaşdırmaq, əhalini ekoloji cəhətdən təmiz içməli su ilə təmin etmək məqsədilə hazırda rayonun 43 kəndində modul tipli sutəmizləyici qurğular quraşdırılmışdır. Rayonun Murğuzalılı, Mürsəlli, Ağcüyür və Gövhərli kəndlərində isə modul tipli sutəmizləyici qurğuların quraşdırılması işləri başa çatdırılaraq əhalinin istifadəsinə verilmişdir.

İmişli şəhəri su təchizatının yenidən qurulması və kanalizasiya sisteminin yaradılması ilə əlaqədar "Milli Su Təchizatı və kanalizasiya xidmətləri üzrə ikinci layihə" çərçivəsində tikinti işləri 2011-ci ilin sentyabr ayından həyata keçirilmişdir. Hazırda İmişli şəhərinin bütün küçə və məhəlləri içməli su ilə təmin olunmuşdur. Dövlət Proqramına əsasən Göbəktala kəndində 11, Şahverdili kəndində 12, Rəsullu kəndində 7 və Məhəmmədli kəndində isə 6 bulaq tipli su dirəkləri quraşdırılmışdır.

Qeyd olundu ki, İmişli rayonu üzrə 57 tam orta, 3 ümumi orta, 2 ibtidai, 1 peşə təhsil müəssisəsi, 4 məktəbdənkənar, 15 dövlət və 2 özəl olmaqla 17 məktəbəqədər təhsil müəssisəsi fəaliyyət göstərir.

2017-2018-ci tədris ilində XI sinfi bitirən 999 nəfərdən Dövlət İmtahan Mərkəzinə 453 nəfər məzun sənəd vermiş, bunlardan 297 nəfər, əvvəlki illərin məzunlarından isə 39 nəfər ali məktəblərə qəbul olmuşdur. Abituriyentlərdən rayon üzrə 38 nəfər 500-dən yuxarı bal, 14 nəfər isə 600-dən yuxarı bal toplamışlar.

Rayonda 9 xəstəxana, 12 həkim məntəqəsi, 29 tibb məntəqəsi və 1 poliklinika, 2 gigiyena və epidemiologiya mərkəzi, 1 taun əleyhinə şöbə fəaliyyət göstərir ki, həmin müəssisələrdə də 74 nəfər həkim və 352 nəfər orta ixtisaslı tibb işçisi çalışır. Hazırda rayonun səhiyyə müəssisələrində ayrı-ayrı ixtisaslar üzrə 82 nəfər həkimə ciddi tələbat vardır. 2018-ci ildə əhaliyə göstərilən tibbi xidmətin keyfiyyətinin yaxşılaşdırılması və səhiyyə obyektlərinin maddi-texniki bazasının gücləndirilməsi istiqamətində rayonda müəyyən işlər görülmüşdür.

2018-ci il ərzində rayon üzrə 49 abonentə telefon xətti çəkilmişdir. Rayon üzrə ümumi genişzolaqlı internet istifadəçilərinin sayı 3790 nəfərə çatdırılmışdır. 2018-ci ildə əhalinin genişzolaqlı internetə olan tələbatını ödəmək məqsədilə rayonun Bəhrəmtəpə və Cəfərli kəndində 48 portluq DSLAM avadanlığının quraşdırılması işləri başa çatdırılmış və əhalinin istifadəsinə verilmişdir.

Toplantıda çıxış edən Prezident Administrasiyasının məsul işçisi Əflatun Rufiyev, Millət vəkili Çingiz Qənizadə 2018-ci ildə rayonun inkişaf durumunu yüksək qiymətləndirib. 2019-cu ildə görülən işlərin uğurlu olacağına əminlik ifadə ediblər. Hesabat məruzəsi ətrafında çıxışlar dinlənildi.

Sonda toplantı iştirakçıları adından Azərbaycan Prezidenti İlham Əliyevə müraciət qəbul olundu.

**Ərəstun ABDULOV,**
**"Respublika".**

# Daşkəsən şəhərində hesabat yığıncağı

**Daşkəsən RİH başçısının şəhər inzibati ərazi dairəsi üzrə nümayəndəliyində 2018-ci ilin yekunlarına və 2019-cu ildə qarşıda duran vəzifələrə həsr olunmuş hesabat yığıncağı keçirilmişdir.**

Daşkəsən RİH başçısının şəhər inzibati ərazi dairəsi üzrə nümayəndəliyinin inzibati binasında Rayon İcra Hakimiyyətinin başçısı Əhəd Abıyevin rəhbərliyi ilə keçirilən hesabatda rayonun idarə, müəssisə və təşkilatlarının rəhbərləri və rayon sakinləri iştirak etmişlər.



Daşkəsən şəhər İnzibati Ərazi Dairəsi üzrə nümayəndəsi Nüsrət Vəliyev hesabat məruzəsi ilə çıxış edərək bildirmişdir ki, 2018-ci il Azərbaycan üçün uğurlu il olub. Prezident İlham Əliyevin yürütdüyü siyasi kurs sayəsində ötən il ölkəmizin ictimai-sosial-iqtisadi həyatında bir sıra ciddi irəliləyişlərə nail olunub. Dövlət başçısının Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni İl münasibətilə Azərbaycan xalqına təbrikində qeyd etdiyi kimi ötən il bütün dünyada gərginlik içində keçsə də, Azərbaycan öz sürətli inkişaf tempini saxlaya bilib. Ölkəmizin təhlükəsizliyi təmin edilib, iqtisadi və sosial proqramlar icra olunub. 2018-ci ildə Daşkəsən şəhəri ərazisində də abadlıq və quruculuq işləri geniş miqyas almışdır. Heydər Əliyev prospektində maşınların və sakinlərin təhlükəsizliyini nəzərə alıb rayon icra hakimiyyəti başçısının təşəbbüsü ilə istinad divarları bəzək daşları ilə üzlənmiş və səkilərin müasir qaydada tikintisi başa çatdırılmış, şəhərin girəcəyinin görünüşünü tamamilə gözəlləşdirmişdir. Daşkəsən şəhərinin bəzi küçələrində səkilərə yeni asfalt örtüyü salınmış, çoxmərtəbəli yaşayış binalarının fasadları təmir olunaraq rənglənmiş, Heydər Əliyev meydanında və Şəhidlər Xiyabanında əsaslı təmir işləri aparılaraq səliqə-sahman yaradılmış, şəhərin meydan və küçələrinə yeni işıqlandırma sistemləri quraşdırılaraq tam müasirləşdirilmişdir.

Hesabat dövrü ərzində Şəhər nümayəndəliyi inzibati dairəsində yerləşən xidmət təşkilatlarının fəaliyyətinin əlaqələndirilməsi, onlar tərəfindən əhaliyə göstərilən xidmətin səviyyəsinin yüksəldilməsi istiqamətində müəyyən tədbirlər görülmüşdür. Belə ki, nümayəndəliyin tərkibinə daxil olan yaşayış məntəqələrində əhalinin elektrik enerjisi, təbii qaz və içməli su ilə təminatında xeyli dönüş yaranmışdır. Bu gün Daşkəsən şəhərinin əhalisi fasiləsiz olaraq ekoloji cəhətdən təmiz su ilə təmin olunur.

Daşkəsən Rayon İcra Hakimiyyətinin başçısı Əhəd Abıyev şəhər ərazi dairəsi üzrə nümayəndəsinin hesabat yığıncağında geniş və məzmunlu çıxış edərək bildirmişdir ki, ölkəmizdə gedən bütün bu uğurlu inkişafın, nailiyyətlərin ilham mənbəyi məhz ulu öndər Heydər Əliyevin uzun illərə hesablanmış müdrik siyasətinin nəticəsidir. Azərbaycan xalqı bu mənada xoşbəxt xalqdır ki, onun dünya şöhrətli cənab İlham Əliyev kimi qurucu, yaradıcı, beynəlxalq aləmdə öz nüfuzu ilə seçilən Prezidenti vardır. Azərbaycanı və eləcə də ölkəmizin bütün regionlarını xoş gələcək gözləyir.

2019-cu ildə qarşıda duran vəzifələrdən də danışan Əhəd Abıyev bütün işlərə ciddi nəzarət etdiyini və hər bir icra nümayəndəsinin qarşısında konkret tapşırıqlar qoyulduğunu bildirib.

Daşkəsən Rayon İcra Hakimiyyətinin başçısı Əhəd Abıyev şəhər inzibati ərazi dairəsi üzrə nümayəndəliyin ərazisində mövcud olan çatışmazlıqların aradan qaldırılması istiqamətində bundan sonra da tədbirlərin görülməsi məqsədilə aidiyyəti şəxslərə təlimat və tapşırıqlarını verib.

**Zabit XƏLİLOV,**
**"Respublika".**

*Zahid ƏHMƏDOV*

# ŞƏHİD ATASI VƏ YAXUD BİR DAMLA GÖZ YAŞI

## *(Sənədli hekayə)*

**Xasay kişi sağ əlini zamanın sığal çəkdiyi sifətində, düyünlənəndə qırışları dərinləşən alnında gəzdirdi, itirdiyini tapmayan adam kimi bir yerdə qərar tuta bilmədi. Səbəbini anlamadığı nisgil dolmuşdu qəlbinə. Doluxsunmuşdu, kövrəlmişdi bir az da. Elə bil gözləri də torlanmışdı. Əlini alnından gözlərinə endirdi, bərk-bərk göz qapaqlarını ovxaladı. Xeyli yüngülləşdi, deyəsən. Kədərinin səbəbi də bəlli oldu ona indi. İlqarı düşmüşdü yadına - qaynar təbiətli, istiqanlı, təəssübkeş, elin-obanın qeyrətini çəkən, həmişə haqqın tərəfini saxlayan nakam İlqarı...**

Xasay eyvandan ayrılıb otağa keçdi, İlqarın divardan asılmış şəklinin qabağında dayandı, baxışlarını onun gülümsər, məsum gözlərinə dikdi və xeyli beləcə qaldı. Sonra aralarında baş vermiş son söhbəti xatırlamağa çalışdı.

" - Ata, dözə bilmirəm daha, gedəcəm vuruşmağa.

- Bəlkə getməyəsən hələ, oğul. O qədər vuruşan var ki... - dedi Xasay kişi. Üzə vurmasa da, dediklərinə içində bir peşmançılıq çəkdi. Oğlu pis başa düşməsin deyə tez də əlavə etdi:

- Yox, getmə demirəm. Dediyim odu ki, növbən gələndə gedərsən, hərbi komissarlıq çağırış göndərəndə...

Xasay kişi bu sözləri dedi, amma səsini öz səsinə bənzədə bilmədi. Susdu, günah tutmuş adam kimi başını aşağı saldı.

- Öz növbəsində hamı gedir, ata. Bir də qeyrətlə vuruşanların sayı düşündüyümüz qədər deyil. Mən indi getmək istəyirəm. Bu torpağı mən qorumayım, sən qoruma, o qorumasın, bəs kim qorusun?! "Torpaq uğrunda ölən varsa, vətəndi" deyib şair. Qoy bayağı səslənməsin, ata, doğrudan da, belədi.

Xasay kişi içində bir xəcalət yaşadı, gözlərini qaldırıb məhəbbətlə oğluna baxdı. Eşitdikləri diksindirmişdi onu. Oğlunu tanıya bilmirdi, yaşından çox böyük görünürdü o. Üz-gözündə kədər kölgəsi vardı, çox qayğılıydı.

Baş verənlərə üzülsə də, oğlunun sözlərindən fərəhləndi, qürur duydu Xasay kişi...".

Xasay kişi xatirələrin şirinliyinə bürünüb qalmışdı. Bundan o yana getmək istəmirdi. İstəyirdi zaman donsun elə buradaca. Stolun arxasına keçdi. Papiros yandırdı. Tüstünün acılığını içini bürüməyə ağrıya qatdı. Göz qapaqları öz-özünə örtüldü...

* * *

Şahbuz rayonunun Kolanı kənd sakini Xasay Məmmədov 1937-ci ildə dünyaya gəlib. Orta məktəbi qurtardıqdan sonra Gəncə Kənd Təsərrüfatı İnstitutuna daxil olub. İnstitutu bitirən kimi də öz doğma rayonuna qayıdıb. Əvvəlcə torpaq komitəsində işləyib, 1965-ci ildə isə Naxçıvan zona təcrübə stansiyasının Şahbuz dayaq məntəqəsinə müdir təyin olunub. İşgüzarlığı, bacarığı, qayğıkeşliyi və xüsusilə də halallığı diqqətdən yayınmayıb. Şahbuz Rayon İcraiyyə Komitəsi sədrinin müavini vəzifəsinə irəli çəkilib. Düz on il - 1978-1988-ci illərdə bu vəzifədə ləyaqət və vicdanla işləyib. Daha sonra 6 nömrəli şərab zavodunda direktor olub.

İyirminci əsrin sonlarında SSRİ adlı böyük bir imperiya dağılmağa başladı. Dünyanın düzəni pozuldu. Baş verən fəlakətlərdən Azərbaycan xalqına da "pay" düşdü. Yüz illər boyu çörəyimizi yeyib, suyumuzu içən ermənilər müxənnət yolu tutdular. Soydaşlarımızı öz dədə-baba yurdlarından qovmağa başladılar. Onların xeyli hissəsi də Şahbuz rayonuna pənah gətirdi. Didərginləri yerləşdirmək çox ağır və çətin məsələ idi. Naxçıvanın özü blokada şəraitində yaşayırdı, böyük torpaqla əlaqə kəsilmişdi. Şahbuz rayonunda qaçqınları yerləşdirmək, qayğılarını həll etmək məsələsi ilə məşğul olmaq işi Xasay müəllimə həvalə olundu. O, gecəsini gündüzünə qatdı, ömrü boyu qazandıqlarını, doğmalarını itirmiş soydaşlarımızın ağrılarını yüngülləşdirmək, qəlblərini ovundurmaq üçün əlindən gələni etdi...

* * *

İlqar Xasayoğlu Qarabağ uğrunda gedən döyüşlərdə, sözün həqiqi mənasında, mərdliklə vuruşa-vuruşa həlak olub.

Neçə illərdir ki, İlqarın adı 6 övlad atası, 8 nəvə babası olan Xasay kişinin ad və ünvanına və qürur mənbəyinə çevrilib...

* * *

İlqar Xasayoğlu 1993-cü ildə könüllü olaraq Binəqədi batalyonunun tərkibində Qarabağ uğrunda vuruşmağa gedib. Minomyotçu olub. Onun döyüş yolu qısa olsa da, çox şərəfli keçib. 1993-cü il 10 dekabr. Düşmən çox böyük qüvvə ilə qəfil hücuma keçib. Qüvvələr qeyri-bərabər idi. Hamının məhv olmaq təhlükəsi vardı. İlqar fikirləşmədən düşmənin qabağını təkbaşına kəsmək qərarına gəldi. Yoldaşlarının təkidinə baxmayaraq, o, fikrindən dönmədi. İlqar minomyotu ilə düşmənin qabağını kəsdi, onları pərən-pərən saldı, böyük sayda döyüş yoldaşlarını xilas edə bildi. Özü bir addım da geri çəkilmədi. Həlak oldu - mərdliklə, cəsarətlə, qeyrətlə. Torpağı özünə Vətən eylədi - şair dediyi kimi: "Torpaq uğrunda ölən varsa, vətəndi".

* * *

Bayırdan səs gəldi. Onu çağırırdılar. Xasay kişi tələsmədən ayağa durdu, təzədən divardan həsrətlə baxan şəklə yaxınlaşdı. Codlaşmış barmaqlarını sağmış kimi İlqarın üzündə ehtiyatla gəzdirdi. Sonra dodaqlarına yapışdırdı. Ata ilə oğul arasında səssiz söhbət getdi.

- Oğul, qayğılısan, narahat görünürsən. Üzgözündən küskünlük yağır. Nədəndi?

- Ata, toxum kimi səpilmişik əsir torpaqlarımıza. Amma bitə bilmirik, boy ata bilmirik. Toxum olaraq qalmaqda, çürüməkdəyik.

- Nədəndi bu, oğlum?

- Unudulmuşuq, yaddan çıxmışıq. Yadlaşmısınız, özgələşmisiniz hər şeyə. Suvarmaq istəmirsiniz bizləri daha...

- Eh, ay oğul, dünyada sənin də, elə mənim də bilmədiyim çox qaranlıq mətləblər var. Dünyanın güc sahiblərinin "ikili standart" oyunları olmasaydı, indi sizlər çoxdan çiçək açmışdınız, bizlər - dünyada sağ qalanlarımız da bu ağır tənə yaşantılarından qurtarmış olardıq.

Xasay kişi gücsüzlük xəcalətinin yaratdığı ovqatdan xeyli vaxt ayrıla bilmədi. İçindəki ağrılı yaşantılara əvvəlcə üşəndi, diksinən kimi oldu, sonra da quruyub qaldı. Gözündən tək bircə damla yaş çıxdı. Silmək istəmədi, onun yerə düşməsindən qorxdu. Toxuma dönüb əsir torpaqlarımıza səpilmiş şəhid balalarımıza qan verə bilmirik, heç olmasa, bu bir damla göz yaşı ilə suvarmaq istəyi keçdi ürəyindən.

Elə bu an qapılar taybatay açıldı, nəvələri hay-küylə içəri girdilər. Şirin-şəkər nəvələr ayaq üstə heykələ dönmüş babanın üzündə gilələnib qalmış bir damla yaşı seçə bildilər...

Əmisi İlqarın adını yaşadan balaca İlqara isə baş verənlərin fərqinə varmadan özünü babasının üstünə saldı...

# Unudulmaz alim, vətəndaş yazıçı



**Zahid müəllim həqiqətən müasir dünyamızın mürəkkəb illərini dərk edən tanınmış yazar, dilçilik mədəniyyətini, ədəbiyyat məntiqini yaxşı bilən kamil tərcüməçi kimi tanınırdı. Ömür coğrafiyasının 50 ildən çoxunu bilavasitə Azərbaycan Milli Elmlər Akademiyasının təhsil mədəniyyətinin, jurnalistika sənətinin tabeliyinə və saflaşmasına həsr etmişdi. İndi Azərbaycan Milli Elmlər Akademiyasında, xüsusilə akademik Həsən Əliyev adına Coğrafiya İnstitutunda, Geologiya İnstitutunda, Dilçilik və Ədəbiyyat İnstitutunda bütövlükdə Yer elmləri bölməsində bir zəhmətkeş mütəxəssisin xatirələri yavaş-yavaş yaddaşlarda qalmağa başlayır.**

2019-cu ilin soyuq yanvar ayının 27-si bu nadir insanlıq keyfiyyətlərinə malik, qayğıkeş insanın ömür coğrafiyası sonluğunu əbədiləşirdi. Qəflətən ölüm dərgahına qismət olan Zahid Məhəmməd oğlu Əhmədov 1939-cu il noyabrın 15-də Gürcüstan Respublikasının dağlıq Dmanisi rayonunun Şorşeled kəndində anadan olmuşdur. 1958-ci ildə Dmanisi rayonu Kiromisi kənd orta məktəbini gümüş medalla bitirmiş və həmin ilin noyabr ayında ordu sıralarında xidmətə getmişdir. 1961-ci ildə hərbidən tərxis olunandan sonra çoxdan arzuladığı dəli Kürün körpüsündən keçərək ömrünün xoşbəxtlik salnaməsinin həqiqəti olan Azərbaycana — Bakı şəhərinə qovuşmuşdur. Düz 60 ilə yaxındır ki, bu ünvanda özünün elmi-texniki yaradıcılığı və ailə mədəniyyətinin çoxşaxəli sahələrinin müxtəlif məsələləri ilə məşğul olmuşdur. İlk əvvəllər işgüzarlıq fəaliyyətini bir vaxtlar Azərbaycanda çox tanınmış Yeni Bakı Neftayırma zavodunda fəhlə həyatı ilə başlamışdı. Zahid müəllim ömrünün elə bu mərhələsində həyatın çətinliklərini öyrənmişdir. Hansı ki, bu həyatı çətinliklər təcrübəsi onun ömür coğrafiyasının rəvan rəngarəng olmasında sınaq meydanı kimi kömək etmişdir. Nəhayət, gənclik dövrünün yekunu olaraq 1962-ci ildə M.F.Axundov adına Azərbaycan Dövlət Pedaqoji Xarici Dillər İnstitutunun ingilis dili fakültəsinə qəbul olunmuş və 1967-ci ildə müvəffəqiyyətlə təhsil müddətini başa vurmuşdur. 1967-1969-cu illərdə Azərbaycan SSR Qasım İsmayılov (indiki Goranboy) rayonunun Tapqaraqoyunlu kənd orta məktəbində ingilis dili müəllimi kimi çalışmışdır. Həmin kənd erməni işğalçılarına yaxın olan yerdə yerləşdiyi üçün tez-tez atəşə məruz qalırdı və bu, Zahid müəllimin qəlbini həmişə ağrıdırdı. Gözəl təbiətli, al-əlvan mənzərəli bu kəndin tarixi keçmişini, insanların zəhmətkeş və vətənə sadiqliyini həmişə böyük təəssüflə yada salardı. Lakin Zahid müəllimin taleyi 1969-cu ildən ömrünün sonuna kimi Azərbaycan Milli Elmlər Akademiyasının akademik Həsən Əliyev adına Coğrafiya İnstitutu ilə bağlı olmuşdur. Uzun müddət elmi işçi vəzifəsində və tərcüməçiliklə çalışmışdır. Yüzlərlə yeni elmi fikir və ideyaların ingilis dilində səslənməsində Zahid müəllimin xidməti olmuşdur. Zahid müəllim həddindən artıq səmimiliyi, humanistliyi sevirdi. Çalışırdı ki, Azərbaycanın tanınmış tədqiqatçı alimi, ictimai xadimi akademik Həsən Əliyevin elmi yaradıcılıq uğurlarını, Azərbaycan elminə verdiyi elmi yeniliklərini, töhfələrini, təcrübi mahiyyətini beynəlmiləlləşdirsin. Ona görə xalqın tanınmış oğlu, məşhur tədqiqatçı akademik Həsən Əliyev həmişə ona böyük hörmət və qayğı göstərmişdir. Lakin onun Həsən müəllimlə bağlı bir tapşırığın tarixçəsi olduqca maraqlıdır. Zahid müəllim öz yazılarında göstərir ki, cəmi üç ay idi ki, hörmətli Həsən müəllimin yanında işləyirdi. Bir dəfə mənə akademiyanın əsas kitabxanasında bir jurnalın olub-olmaması barədə öyrənməyi tapşırıq verdi. Mən də gedib gəldim dedim ki, bəli, bu jurnal var. Jurnalın ilini və çap olunduğu ölkəni soruşdu, dedim ki, bilmirəm tələsik gedib yenidən onları da öyrəndim, lakin məqalənin neçə səhifə olmasını da soruşdu. Yenə bilmədim, gedib onu da öyrənərəm, lakin Həsən müəllim mehriban təbəssüm işarəsi ilə qoymadı. Gülərək otur dedi: - Xətrinə dəyməsin, sənə bir rəvayət danışacağam. Neçə aydır bərabər işləyirik, görürəm çalışqansan, təmiz oğlansan, düzgünlüyü sevirsən, hər şeydən əvvəl isə səmimisən, onu da bil ki, mən hər adamla belə məhrəm söhbət etmirəm, dünya gör-götür dünyasıdır. Bu mərhəmətli, tarixi nəsihətlər Zahid müəllimin sonrakı hərtərəfli yaradıcılıq həyatının fəaliyyətində böyük örnək oldu.

Zahid müəllim akademik Həsən Əliyev, akademik Budaq Budaqov, akademik Ramiz Məmmədov, bir də böyük şairimiz Məmməd Araz məktəbinin yetişdirməsidir. Həyatının keşməkeşli çətinliklərini, gələcəyin xoşbəxtlik yollarında onlardan öyrənmişdir. Yüksək bədii yaradıcılıq, elmi redaktorluq, tərcüməçilik fəaliyyəti ona həmişə böyük hörmət qazandırmışdır. Bir sıra publisistik yazı və hekayələri indi Zahid müəllimin elmi yaradıcılığının ən yaddaqalan nümunələridir. Əlbəttə həyatda səksən və daha çox illər ömür sürən kəslərə dünyadan köçəndən sonra müxtəlif tale qismət olur. Daha doğrusu, bu fiziki ömür kəsiyində gerçəkləşmiş insan əməllərinin dəyəri sahibinə yaddaşlarda yaşayıb-yaşamamaq haqqı qazandırır. Tarixin hər cür sınaqlarından seçimi olan bu kəlam daha düşündürücüdür. Adam var ki, hələ sağlığında varlığı ilə yoxluğu arasında fərq olmur, adam var ki, ancaq özünün, ailəsinin, qohum-əqrəbasnın qayğısına qalmaqla ömrünü başa vurur. Adam var ki, el-obasının, bütün ətrafının ağrılarını yaşayır. Yəni insanların həyatda qızıldan saray tikdirib getməkdənsə, yaxşı ad qoyub getmək daha yaxşıdır. Bu dediklərimiz tarixi-insani keyfiyyətləri bilavasitə ömür coğrafiyası yarımçıq qalmış unudulmaz Zahid müəllimin bilavasitə taleyinə şamil etmək istəyirəm.

Zahid müəllimin çoxsaylı hekayə və publikasiyalarından biri olan akademik Həsən Əliyevi təbiətə, vətənə və xalqına məhəbbət dünyasını işıqlandıran "Elin oğlu" kitabı indi hər bir azərbaycanlı vətəndaşının stolüstü kitabına çevrilmişdir. Bilavasitə Zahid müəllimin redaktorluğu və təşkilatçılığı sayəsində başa gəlmiş bu kitab elimizin, obamızın ağsaqqalı akademik Həsən Əliyevin təbiətimizə və vətənimizə məhəbbət mədəniyyətinin, təbiətimizin gözəlliyini saxlamaq üçün hər birimizin vətəndaşlıq borcunun təbliğatıdır. "Həyəcan təbili" kitabında bu müqəddəs vətəndaşlıq vəzifəmizi təkrar-təkrar vurğulamışdır. Kitabda göstərilən həyəcan təbili müzakirələr ölkəmizdə təbiətə qayğını, sevgini, vətənpərvərlik hisslərini təbliğ edir. Həqiqətən kitabda deyildiyi kimi tanınmış elin oğlu akademik Həsən Əliyevin ağrılı-acılı ömür yolundan, yorulmaz zəhməti, güclü həvəsi, uğurlu elm-zəhmət taleyini xüsusilə elmin-həyatın zirvəsinə çatması keyfiyyətlərini zaman-zaman arayıb araşdırmışdır. Bunların hamısını yazar Zahid Əhmədovun məhsuldar və milli dəyərlərə söykənən mənalı bədii-ədəbi yaradıcılığının ən yaxşı göstəriciləri saymaq olar. Zahid müəllimin akademik Budaq Budaqov, akademik Ramiz Məmmədovla olduqca isti elmi yaradıcılıq münasibətləri olmuşdur. Bu görkəmli alimlərin əsərlərinin ədəbi rəvanlıq aspektlərinin formalaşmasında beynəlxalq elmi koordinasında yer almasında onun redaktorluq qələminin və düşüncələrinin nəfəsi duyulurdu. Yəni onların əsərlərinin dünyəviləşməsində Zahid müəllimin bədii təxəyyülünə həmişə ehtiyac duyulurdu. Uzun illərdi Coğrafiya İnstitutunun yeni konstruktiv məzmunlu "Coğrafiya və təbii resurslar" jurnalının redaktoru və elmi tərtibatçısı vəzifəsini yerinə yetirirdi. AMEA-nın Yer elmləri bölməsinin elmi jurnalı "Xəbərlər", "Məruzələr" jurnallarının aparıcı əməkdaşı olmuşdur. Hazırda xatirələrdə yaşayan böyük şair Məmməd Arazın rəhbərliyi sayəsində ərsəyə gəlmiş "Təbiət" jurnalının bilavasitə əməkdaşı olmuşdur. Azərbaycan təbiətinin əvəzsiz xüsusiyyətinin dəyərini əks etdirən bu elmi-təcrübi jurnalı uzun illər dəyişməyən tərtibçisi olmuşdur. Unudulmaz şairimizin çox ürəkdən deyilmiş poetik ifadələri, "dünya sənin, dünya mənim, dünya heç kimin" özü də Zahid müəllimin taleyində reallaşırdı.

Zahid Əhmədov yüksək tərcüməçilik və publisistlik mədəniyyətinə malik idi. Onun "Toxunulmaz müqəddəslər" toplusunun əsas cəhətləri akademik Budaq Budaqovun təbiri ilə desək mövzu orijinallığında, oynaq və şirin elmi-kütləvi dildə yazılmağında, mövzu müxtəlifliyində və aktuallığındadır. Kitabda əsasən heyvanat aləmindən, bəzi heyvanların təbii hadisələrə, xüsusilə zəlzələlərə həssaslıq xüsusiyyətlərindən danışır. Heyvanlar Yer kürəsinin canlı sərvətidir. Eyni zamanda heyvanların coğrafi məskunlaşması prinsiplərinə əsaslanaraq dünyanın coğrafi məkanlarının coğrafi xüsusiyyətləri haqqında əvvəlcədən fikir söyləmək mümkündür. Kitabda həmçinin insanlara böyük ölçüdə fəlakətlər gətirən zəlzələləri öncədən xəbər verə biləcək heyvanlardan, insanlara şəfa və bədbəxtlik gətirən quşlardan söz açılır və sivilizasiyalı cəmiyyət üçün yad sayılan çoxəsrliliyin bəlkə də son məskəni sayılan tibetli icmalar barədə maraqlı coğrafi biliklər verilir.

Müəllifin publisistik topluları sırasında "Qəribə dünyamız", "Sirli dünyamız", yaponiyalı Reiko Ucidanın "Tufandan qabaq", "Yamanlığın kökü" və s. yazıları həqiqətən dünya coğrafiyasının dərk olunmasında böyük əhəmiyyət kəsb edir. Son məqamlarda akademik B.Budaqovun "Avrasiyanın türk toponimləri" əsərini Azərbaycan dilindən ingilis dilinə tərcüməsi Zahid müəllimin ən böyük arzularından biri oldu. Zahid müəllimin bu mövzuda 20-dən çox yazıları dərc olunmuşdu. Çünki Zahid müəllimin maraq dairəsi həqiqətən mütaliə, insan mənəviyyatı ilə publisistika, ən böyük istəyi isə Azərbaycanı həmişə azad və bütöv, insanlarını halal, məğrur və ləyaqətli görmək olmuşdur.

Zahid müəllimlə artıq 50 ildən çoxdur ki, qonşuluqda, bir ünvanda yaşamışıq. Hamıya qarşı hörmət və səmimiyyət göstərməyə çalışırdı. Xüsusilə elmlə məşğul olan insanlarımıza redaktorluqda və tərcüməçilikdə hər cür köməklik göstərirdi. Zahid müəllimin xatirələri, səmimiyyətli davranışları və bir də Azərbaycan xalqına olan ehtiramı həmişə qəlbimizdə yaşayacaqdır.

**Habil HAQVERDİYEV,**
**AMEA akademik H.Ə.Əliyev adına**
**Coğrafiya İnstitutunun**
**"Coğrafi fikir tarixi və toponimika"**
**şöbəsinin müdiri, c.ü.f.d.**

# LƏNKƏRANDA TƏHLÜKƏSİZLİK ORQANLARININ 100 İLLİK YUBİLEYİ



Lənkəran şəhərində Azərbaycan Dövlət Təhlükəsizliyi Xidməti, "Alyans" Xüsusi Xidmət Orqanlarının Veteranları İctimai Birliyinin və Lənkəran Şəhər İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "Azərbaycanda təhlükəsizlik orqanlarının yaranmasının 100 illiyi, ümummilli lider Heydər Əliyevin təhlükəsizlik orqanlarında fəaliyyəti və rolu" mövzusunda yığıncaq keçirilib.

Tədbir iştirakçıları əvvəl Heydər Əliyev xatirə parkında ulu öndərin abidəsi önünə gül dəstələri düzərək dahi rəhbərin parlaq xatirəsinə hörmət və ehtiramlarını ifadə ediblər. Sonra Heydər Əliyev Mərkəzindəki müzeydə ümummilli liderin ömür yolunu və zəngin dövlətçilik fəaliyyətini əks etdirən fotoşəkillər və eksponatlarla tanış olublar.

Tədbir mərkəzin iclas zalında davam etdirilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Yığıncağı Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov açaraq milli təhlükəsizlik orqanlarının Azərbaycan Xalq Cümhuriyyətinin yaratdığı çox mühüm və əhəmiyyətli təsisatlardan biri olduğunu, 100 illik yubileyinin ölkənin ictimai-siyasi həyatında əlamətdar hadisə kimi qeyd edildiyini bildirib. İcra başçısı xüsusi xidmət orqanlarının fəaliyyətinin təkmilləşdirilməsində və müstəqil dövlətimizin milli təhlükəsizliyinin qorunmasında çox vacib, mühüm bir quruma çevrilməsində ümummilli lider Heydər Əliyevin müstəsna xidmətləri barədə danışıb.

"Alyans" Xüsusi Xidmət Orqanlarının Veteranları İctimai Birliyinin sədr müavini, ehtiyatda olan polkovnik Azər Qarayev Azərbaycan xüsusi xidmət orqanlarının yarandığı gündən indiyə kimi şərəfli və keşməkeşli yol keçdiyini diqqətə çatdırıb. Bildirib ki, fəaliyyətinin hər üç mərhələsində Azərbaycanın xüsusi xidmət orqanları dövlətçiliyə sədaqətlə xidmət göstərib. Onun həm keçmiş sovet dövründə, həm də müstəqillik illərində inkişafında Heydər Əliyevin əvəzsiz rolu olub. Müdrik rəhbər yüksək işgüzarlığı və təşkilatçılıq bacarığı ilə bu orqanın milliləşdirilməsi üçün yorulmadan çalışıb. Azərbaycanın xüsusi xidmət orqanları bu gün də fəaliyyətini yüksək səviyyədə davam etdirirlər.

Yığıncaqda Milli Qəhrəman Əsgər Əliyevin atası Hacı Ələkbər Əliyev, Lənkəran Dövlət Universitetinin tələbəsi Rəşad Paşayev çıxış edərək təhlükəsizlik orqanlarının yad ünsürlərdən təmizlənməsində, milliləşmə siyasətinin aparılmasında, təhlükəsizlik orqanlarının fəaliyyətinin xalqımızın milli maraqları baxımından düzgün istiqamətləndirilməsində, bu sahədə kadrların hazırlanması və yerləşdirilməsində ümummilli liderin misilsiz xidmətlərindən danışıblar.

Tədbirin sonunda ulu öndərin dövlət təhlükəsizliyi orqanlarındakı fəaliyyətinin bir sıra məqamlarını əks etdirən film nümayiş etdirilib.

**Əlisəfa HƏSƏNOV,**
**"Respublika".**

# Şəhid ailələri və Qarabağ əlilləri ilə görüş

Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov şəhid ailələri və Qarabağ əlilləri ilə görüşüb. Görüşün əvvəlində Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarından keçərək şəhid olanların əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Şəhər rəhbəri Niyazi Bayramov ölkə başçısının hər zaman şəhid ailələrinə xüsusi diqqət və qayğı ilə yanaşmısından ətraflı söhbət açaraq, bildirmişdir ki, ölkə Prezidenti cənab İlham Əliyevin Fərmanına əsasən şəhid vərəsələrinə 11.000 (on bir min) manat məbləğində birdəfəlik ödəmənin verilməsi, şəhid ailələrinin sosial müdafiəsinin yaxşılaşdırılmasına xidmət edir. Məhz bu görüşün keçirilməsində də məqsəd şəhid ailələri və Qarabağ əlillərinin təklif və şikayətlərini diqqətlə dinlənilməsi, araşdırılması və onların ehtiyaclarının mümkün şəkildə təmin edilməsidir.

Görüşdə, Şəhid ailələri və Qarabağ əlillərinin müraciətləri fərdi şəkildə dinlənilmişdir. İşlə təminat, sanatoriyalara göndərişlərin verilməsi, müalicəyə ehtiyacı olanların həkim nəzarətinə götürülməsi, qəzalı evlərin təmiri kimi məsələlər səslənən müraciətlərin əsasını təşkil etmişdir. Görüşdə su, qaz və elektrik enerjisi ilə təminatla bağlı da şikayətlər səsləndirilib. Dilə gətirilən problemlərin bir çoxunun dərhal həll edilməsi, digərlərinin isə araşdırılaraq aradan qaldırılması istiqamətində aidiyyəti qurum və təşkilatlara müvafiq tapşırıqlar verilmişdir.



Şəhid ailələri və Qarabağ əlilləri, bu kateqoriyadan olan insanlara göstərilən diqqət və qayğını qiymətləndirərək qeyd ediblər ki, ölkə Prezidenti cənab İlham Əliyevin bu sərəncam və fərmanları şəhid ailələrinin, əlillərin sosial vəziyyətinin yaxşılaşdırılmasına göstərilən qayğının bir daha bariz nümunəsidir. Ümumiyyətlə, Azərbaycanda Qarabağ müharibəsi əlillərinə və şəhid ailələrinə yüksək dövlət qayğısı göstərilir. Bu siyasətin əsası isə ulu öndər Heydər Əliyev tərəfindən qoyulub. Ümummilli liderimiz tərəfindən 1994-cü il avqust ayının 26-da imzalanan "Azərbaycan Respublikasını erməni təcavüzündən müdafiə edərkən əlil olmuş şəxslərin sosial müdafiəsinin yaxşılaşdırılması haqqında" fərman müharibə əlillərinin sosial ehtiyaclarının ödənməsi istiqamətində atılan ilk addım oldu. Həmin fərmanın imzalanması ilə müharibə iştirakçılarının, əlillərinin sosial müdafiəsini gücləndirmək məqsədilə tədbirlərə start verildi.

Bu gün bu siyasət yeni mərhələyə qədəm qoyub. Dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin əsas istiqamətlərindən birini müharibə veteranlarının, əlillərinin, şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi, onların problemlərinin vaxtında həllinə nail olunması, hər cür qayğı ilə əhatə olunması təşkil edir.

**Zabit XƏLİLOV,**
**"Respublika".**

# Tovuz kəndləri inkişaf edir

Tovuz respublikanın hərtərəfli inkişaf tempinə malik olan rayonlarından biridir. Son dövrlərdə istər rayon mərkəzində, istərsə də kəndlərdə infrastruktur layihələrin həyata keçirilməsi davamlı xarakter almışdır. Yaradılan münbit şərait nəticəsində rayon iqtisadiyyatının əsasını təşkil edən aqrar sahənin inkişafında ürəkaçan mənzərə müşahidə edilir. Rayonda həyata keçirilən məqsədyönlü tədbirlərin nəticəsidir ki, kənd təsərrüfatı məhsullarının istehsalı ilbəil artır. Tovuzun inkişaf etmiş böyük yaşayış məntəqələrindən olan Əlimərdanlı kəndində tərəqqi və inkişaf diqqəti daha çox cəlb edir. Rayon mərkəzi ilə Əlimərdanlını birləşdirən müasir standartlara cavab verən asfalt yolla kəndə yollandıq.

Kənddə Tovuz RİH başçısının Əlimərdanlı kənd İƏD üzrə Nümayəndəsi Süleyman Muradov və Əlimərdanlı kənd bələdiyyəsinin sədri Şirin Əhmədovla həmsöhbət olduq. Məlum oldu ki, kənd sakinlərinin əsas məşğuliyyəti əkin-biçin, maldarlıq, arıçılıq və kiçik biznesdir. Müsahiblərim qeyd etdilər ki, Əlimərdanlı kəndində 870 təsərrüfat 770 ev mövcuddur. Əhalinin sayı 3575 nəfərdir. Kənddə Sovet İttifaqı Qəhrəmanı Mərdan Musayev adına tam orta məktəb, Aşıq Nəcəf Hüseynov adına Əlirmərdanlı kənd mədəniyyət evi, 75 yerlik körpələr evi-uşaq bağçası, tibb məntəqəsi, 600 abunəlik elektron ATES və poçt məntəqəsi fəaliyyət göstərir. Ötən il körpələr evi-uşaq bağçası əsaslı təmir olunaraq hər cür lazımi avadanlıqlarla təchiz olunmuşdur. İcra nümayəndəliyinin və bələdiyyənin inzibati binası daxili imkanlar hesabına ötən il əsaslı təmir olunmuşdur. Binanın dam örtüyü tamamilə dəyişdirilmiş, çöl tərəfi yenidən suvadılaraq rənglənmiş, ayna, qapılar dəyişdirilmiş, pilləkən yenidən qurulmuş və otaqlar müasir avadanlıqlarla təchiz olunmuşdur. Kəndin işıq sistemi tamamilə yenilənmişdir, köhnə işıq dirəkləri dəyişdirilərək, yeni metal dirəklərlə əvəz olunmuş, yenidən kabelləşmə aparılmışdır.

2018-ci ildə Əlimərdanlı kəndinə yeni içməli su çəkildi. Kənd əhalisinin sıx məskunlaşdığı yerlərdə 63 bulaq qoyulmuşdur. Bulaqlarda suyun itkiyə getməməsi üçün xüsusi avadanlıqlar quraşdırılmışdır. Mütəxəssislərin fikrincə, kəndə verilən su bütün parametrlərə cavab verən keyfiyyətli sudur. Əlimərdanlıda təhsilin keyfiyyətinə də xüsusi diqqət yetirilir. Hazırda məktəbdə 464 şagird təhsil alır. Onların təlim-tərbiyəsi ilə 72 müəllim məşğul olur. Ötən tədris ilində məzunlardan 6 nəfəri respublikanın müxtəlif ali təhsil ocaqlarına, 2 nəfər isə orta ixtisas məktəbinə qəbul olunmuşdur. Kənddə aztəminatlı ailələrə daim diqqət yetirilir. Ötən il özünəməşğulluq proqramı çərçivəsində 5 ailəyə yardım edilmişdir. Onlara heyvandarlıqla məşğul olmaq üçün şərait yaradılmışdır. Əlimərdanlı kənd bələdiyyəsi də işini günün tələbləri səviyyəsində quraraq kənddə müxtəlif abadlıq işləri aparır. Bələdiyyənin daxili imkanları hesabına kəndarası yollar xırlanmış, əhalinin gediş-gəlişi yaxşılaşmışdır. Bundan başqa, suvarma suyunun sahələrə itkisiz çatdırılması üçün su arxları lildən, kolkosdan və digər lazımsız əşyalardan təmizlənmişdir. Əlimərdanlıda Tovuzun digər



kəndlərində olduğu kimi, əkinçilik və maldarlığın inkişaf etdirilməsi üçün münbit şərait yaradılmışdır. Ötən il kənddə 250 ha buğda əkilmiş, 1235 ton məhsul əldə olunmuş, 50 ha arpa sahəsindən 132 ton məhsul toplanmış, 150 ha sahədən 3096 ton yüksəkkeyfiyyətli tərəvəz məhsulları əldə olunmuşdur. Əldə olunan kənd təsərrüfatı məhsulları rayon bazarı ilə yanaşı, respublikanın digər bazarlarına da satışa çıxarılmışdır. Kənddə şəxsi təsərrüfatlarda 770 baş iribuynuzlu, o cümlədən 325 baş ana inək, 7696 baş qoyun, 806 baş keçi və ev quşları saxlanılır.

Bir sözlə, Əlimərdanlı böyüyür, inkişaf edir və müasirləşir.

**Vəli VƏLİYEV,**
**"Respublika".**

# Azercell Akademiyası il ərzində müxtəlif təşkilatlar üçün 231 təlim təşkil edib

## *Akademiya biznes və dövlət qurumları üçün peşəkar tədris proqramları təklif edir*

**Azərbaycanda dövlət və özəl sektor üçün tədris və konsaltinq xidmətləri təşkil edən Azercell Akademiyası ötən il aktiv fəaliyyəti ilə seçilib. 2018-ci il ərzində Akademiya tərəfindən müxtəlif dövlət və özəl qurumlar üçün 231 təlim sessiyası təşkil olunub. Təlim alan təşkilatlar sırasında Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyininin tabeli qurumları olan Hərbiləşdirilmiş Mühafizə İdarəsi, Baktelecom, Aztelekom, Azİntelecom, eləcə də Avand Technology, Azeronline, ELCOM kimi şirkətlərin, "ASAN xidmət"in Çağrı mərkəzinin əməkdaşları, həmçinin "Üçüncü Bahar" təşəbbüs qrupunun üzvləri var idi.**



Azercell daxilində 2003-cü ildən fəaliyyətə başlayan Azercell Akademiyasının tədris paketinə zəngin təcrübəyə malik 30 mütəxəssis tərəfindən tədris olunan 32 müxtəlif təlim proqramı daxildir. Azercell Akademiyasının fəaliyyətinin ilk dövrlərində yalnız Azercell şirkətinin əməkdaşları üçün daxili təlimlər keçirilirdi. Lakin sonradan bu cür təlimlərə yerli bazarda da tələbat yarandığından, Azercell Akademiyası fəaliyyət dairəsini genişləndirdi. İlk dövrlərdə Azercell-in əməkdaşlıq etdiyi, sonradan bazardakı digər şirkətlər, hətta dövlət təşkilatları üçün də belə təlimlər təşkil edilməyə başladı.

Azercell Akademiyasının təlimləri işçilərin inkişafında əvəzsiz rol oynayır. Gənclər, eləcə də tələbələr üçün "Karyera Brendini Yarat' təlimində CV yazılışı, müsahibəyə hazırlıq və digər mövzularda zəruri biliklər tədris olunur. Bundan əlavə, şirkətlərin gənc əməkdaşlarına "Təqdimat Bacarıqları", "Danışıqlar Aparmaq Vərdişləri" və digər aktual mövzular üzrə təlimlər keçirilir. Şirkətlər üçün "Müştəri Xidmətlərinin İdarə Edilməsi" üzrə təlimdə adı çəkilən funksiyanın rəhbərlərinə işə qəbul, seçim prosesi və tədris, iş proseslərinin qurulması və ölçülməsi kimi məqamlar çatdırılır. Akademiya tərəfindən ölkənin müxtəlif təşkilatları üçün üzbəüz və telefonda Müştəri xidmətləri, əməyin təhlükəsizliyi, layihələrin idarə edilməsi, eləcə də stresin idarə edilməsi sahəsində tədris kursları da keçirilir.

Təlimlərin məqsədi şirkətlərin inkişafına dəstək vermək, müştərilərə daha yüksək keyfiyyətli xidmət göstərmək, gənc mütəxəssislərin müştəri xidmətləri sahəsində peşəkar biliklərini artırmaq və əldə edilən bacarıqların təcrübədə effektiv tətbiqini təmin etməkdən ibarətdir.

Azercell şirkəti təlim prosesinə davamlı yatırımlar etməklə insan kapitalına böyük sərmayə qoyur. Məhz bunun nəticəsi olaraq, ötən il "Azercell Telekom" MMC güclü liderliyin, korporativ mədəniyyətin və insan resurslarının idarə olunması təcrübəsinin davamlı inkişafının göstəricisi olaraq "İnvestors in People" (İİP) - İnsana Sərmayə Standartının tələbləri üzrə dəyərləndirilərək QIZIL sertifikatını qazandı. Azercell ölkəmizdə Qızıl sertifikat qazanan ilk şirkət olmaqla yanaşı, MDB məkanında belə bir uğura imza atan yeganə telekommunikasiya şirkətidir. ■

## Kürdəmir Rayon Mərkəzi Xəstəxanası

## AÇIQ TENDER ELAN EDİR

**Tender 1 (bir) lot üzrə keçirilir:**

**Lot-1.** Avadanlıqların alınması.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki, maliyyə imkanlarına malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyənlər lot üzrə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu ala bilərlər.

**Ünvan: Kürdəmir şəhəri, X. İslamzadə**
**Lot üzrə iştirak haqqı: 100 (yüz) AZN**
**Əlaqələndirici şəxs: Tofiq Mustafayev**
**Telefon: (020) 25-5-04-23**

İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər:

*Dövlət Xəzinədarlıq Agentliyi*
*Kod: 21005*
*VÖEN: 1401555071*
*M/h: AZ41NABZ01360100000000003944*
*Kürdəmir Rayon Mərkəzi Xəstəxanası*
*H/H: AZ74CTRE00000000000002121731*
*VÖEN: 5700107781*
*SWİFT: CTREAZ22*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar aşağıdakı sənədləri təqdim etməlidirlər:

*—tenderdə iştirak etmək üçün ərizə;*
*—tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*—tender təklifi (zərflərin açıldığı gündən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
*—tender təklifi qiymətinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı gündən ən azı 60 bank günü müddətində qüvvədə olmalıdır);*
*—Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
*—iddiaçının son iki ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*—iddiaçının son iki il ərzində maliyyə vəziyyəti (dövriyyəsi) haqqında bank arayışı;*
*—iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri, mənfəət vergisinin bəyannaməsi;*
*—iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 15 mart 2019-cu il saat 17:00-dək, iş qrafiki, tender təklifi və bank zəmanətlərini isə möhürlənmiş ikiqat zərfdə 2 aprel 2019-cu il tarixdə saat 17:00-a qədər təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Təklif zərfləri 3 aprel 2019-cu il tarixdə saat 14:00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**Tender Komissiyası.**




## ❑ SƏUDİYYƏ ƏRƏBİSTANI VƏ BƏƏ ABŞ SİLAHLARINI "ƏL-QAİDƏ"yə VERİB?



Səudiyyə Ərəbistanı və Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ), ABŞ-dan aldığı silah və texnikaları "Əl-Qaidə" terror təşkilatına verib. "TRT"nin verdiyi xəbərə görə, bu barədə "CNN" telekanalının hazırladığı jurnalist araşdırması zamanı məlum olub.

Xəbərə görə, Yəməndə hərbi əməliyyatlar keçirən Səudiyyə Ərəbistanı və BƏƏ-nin ABŞ-la əldə olunan razılaşmanı pozaraq, bu ölkə silahlarını "Əl-Qaidə" terror təşkilatı ilə əlaqəli olan ekstremistlərə verib.

Eyni zamanda, bildirilir ki, Səudiyyə Ərəbistanı və BƏƏ silahlı və üsyançı tayfaların sadiqliyinə nail olmaq, xüsusi silah satıcılarının gəlirlərini artırmaq və ümumilikdə Yəməndəki mürəkkəb siyasi vəziyyətə təsir etmək məqsədilə ABŞ silahlarından yararlanıb.

Telekanalın məlumatına görə, bu cür yanaşma ABŞ silahlarının və hərbi texnikasının satılması şərtlərinə ziddir. "CNN" öz araşdırmalarının nəticələrini ABŞ-ın Müdafiə Nazirliyinə göndərib. ABŞ Müdafiə Nazirliyi öz növbəsində bu məsələ ilə bağlı daxili araşdırmanın başlandığını bildirib.

Digər tərəfdən, "CNN"nin Yəmənin Taiz şəhəri ilə bağlı yayımladığı görüntülərdə tekstil dükanlarında silah-sursat satıldığı diqqət çəkib. Telekanalın müxbiri həmin dükanlardan birinə daxil olaraq "Amerika istehsalı olan silahlarınız varmı?" sualına "var, ancaq bahadır və xüsusi sifarişlə gətirilir", - deyə cavab alıb.

Görüntülərdə, həmçinin "Əl-Qaidə" ilə əməkdaşlıq edən "AQAP" terror təşkilatının qalası olaraq tanınan Taiz küçələrində tərk edilmiş onlarca ABŞ istehsalı "MRAP" tipli zirehli texnikalar da gözə dəyir.

## ❑ QİTƏ ÖLKƏLƏRİNDƏN VENESUELA ORDUSUNA ÇAĞIRIŞ



Amerika qitəsinin 14 ölkəsindən ibarət "Lima Qrupu"nun 10 üzvünün iştirakı ilə Kanadanın paytaxtı Ottavada baş tutan yığıncaqda Venesuelada cərəyan edən son proseslər müzakirə edilib. Bu barədə "TRT" telekanalı məlumat yayıb.

"Lima Qrupu" Venesuela ordusuna özünü "müvəqqəti dövlət başçısı" elan edən parlamentin sədri və müxalifət lideri Xuan Quaydoya dəstək verməsilə bağlı çağırış edib.

Yığıncaqdan sonra yayılan yazılı açıqlamada deyilir: "Lima Qrupu" Venesuela Silahlı Qüvvələrinə müvəqqəti prezidentə dəstəyini elan etməsi haqqında çağırış edərək, ölkəyə humanitar yardımların çatdırılmasına maneə törətməməsini tələb edir".

Prezident Nikolas Maduronun fərqli beynəlxalq oyunçular tərəfindən təklif olunan müzakirə səylərini düzgün şərh etmədiyinə diqqət çəkilən açıqlamada, bütün diplomatik cəhdlərdə Xuan Quaydo və onun "yol xəritəsi" əsas götürülməli olduğu vurğulanıb.

Eyni zamanda, ölkədəki mövcud humanitar vəziyyətdən narahat olunduğuna toxunulan açıqlamada yaşanan bütün problemlərdə Nikolas Maduronun məsuliyyət daşıdığı qeyd olunur.

Açıqlamada həmçinin BMT və beynəlxalq təşkilatlara Venesuela xalqına humanitar yardıma hazır olmaları haqqında çağırış edilib.

## ❑ RUSİYADAN KÖÇMƏK İSTƏYƏNLƏRİN ÇOXU GƏNCLƏRDİR



Rusiyadan başqa ölkələrə gedərək daimi yaşamaq istəyənlərin böyük bir hissəsi (41 faiz) 18-24 yaşlı gənclərdir. "Sputnik" informasiya agentliyinin Rusiya mətbuatına istinadən verdiyi xəbərə görə, bu nəticəyə "Levada Mərkəzi"nin sorğusu əsasında gəlinib.

Məlumata görə, ölkədən getmək istəyənlər arasında 55 yaşından böyük olan insanlar azlıq (5 faiz) təşkil edib. Ümumiyyətlə, köçməyə hazır olan rusiyalıların sayı 17 faizdir.

Eyni zamanda, kənd əhalisindən fərqli olaraq, 100 mindən çox əhalisi olan Rusiya şəhərlərinin sakinləri daha çox ölkədən getmək barədə düşünürlər.

"Son illərdə ölkəni tərk etməyi arzulayanların sayı dəyişməz olaraq qalır. Bundan başqa, hər beş nəfərdən birinin qohumları və ya tanışları son 2-3 ildə daimi yaşamaq üçün xarici ölkələrə köçüb" - deyə "Levada Mərkəzi"nin məlumatında bildirilir.

Qeyd edək ki, sorğu 2018-ci il dekabrın 13-19 tarixlərində 18 yaşından yuxarı vətəndaşlar arasında, ölkənin 136 yaşayış məntəqəsində, 1600 nəfərin iştirakı ilə keçirilib.

## ❑ "THE NEW YORK TİMES": ƏFQANISTANDAKI MÜHARİBƏYƏ SON QOYUN



ABŞ-ın "The New York Times" qəzetində "Əfqanıstandakı müharibəyə son qoyun" başlıqlı məqalə dərc olunub. Bu barədə "TRT" telekanalı məlumat yayıb. ABŞ-ın 2001-ci ildə Əfqanıstana daxil olmasından indiyədək 80 ölkədə terrorla mübarizə aparıldığına işarə edilən məqalədə bu missiyalarda həm maddi, həm də insani cəhətdən böyük itkilər verildiyinə diqqət çəkilib.

Məqalədə ABŞ prezidenti Donald Trampın prezident seçkiləri kampaniyası zamanı dənizi aşan hərbi fəaliyyəti məhdudlaşdırmağa söz verdiyi xatırladılaraq deyilir: "Məhdudlaşdırmalar ilk növbədə Əfqanıstandan başlanılmalıdır. Burada 17 ildir ki, hədəfi olmayan bir müharibə gedir".

Əfqanıstandakı müharibəni bitirmək istəyən Trampın vəzifəyə gəldikdən sonra "qələbə planı" tərtib etdiyi və ABŞ-ın Əfqanıstandakı mövcudluğunu artıraraq, "Taliban" və digər terror qruplaşmalarını asanlıqla məğlub etməyi qarşısına məqsəd qoyduğu bildirilən yazıda vurğulanır: "Bu plan uğursuzluğa düçar olur. Daha çox bombardman və daha çox əsgər bizi qələbəyə yaxınlaşdırmadı. On minlərlə mülki vətəndaş həlak və ya şikəst oldu".

ABŞ rəhbərliyinin "Taliban" ilə Əfqanıstandan çıxma məsələsi ətrafında müzakirələr apardığı və bu ay müzakirələrin davam edəcəyi bildirilən məqalədə qeyd olunur: "Amerikanın ən əsas məqsədi Üsəma Bin Ladeni ədalətə təslim etmək idi və buna nail oldu".

